AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin*
*22.08. 2024-cü il tarixli*
*3-29/3-2-540F/2024 nömrəli əmrinə*
*17 nömrəli əlavə*

AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARA XİDMƏT VƏ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ
ƏSLİ İLƏ DÜZDÜR

**"SAÇ KƏSİMİ VƏ GÖZƏLLİK XİDMƏTLƏRİNİN TƏŞKİLİ" İXTİSASI ÜZRƏ**

**T Ə H S İ L  P R O Q R A M I (KURİKULUM)**

**BAKI – 2024**

## 1. Ümumi müddəalar

1.1. Subbakalavr peşə-ixtisas dərəcəsi verən “Saç kəsimi və gözəllik xidmətlərinin təşkili” ixtisasının təhsil proqramı “Təhsil haqqında” və “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədrisin kredit sistemi ilə təşkili Qaydası”na aid qərarı və Elm və Təhsil Nazirliyinin müvafiq qərarları ilə təsdiq edilmiş subbakalavr peşə hazırlığını həyata keçirən təhsil proqramlarının hazırlanmasını tənzimləyən müvafiq hüquqi sənəd və qaydalara uyğun hazırlanmışdır.

1.2. Yüksək texniki peşə təhsili proqramları (kurikulumlar) təlim nəticələri və məzmun standartlarını, tədris fənn/modullarını, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi sistemini özündə əks etdirən sənəddir.

1.3 Təhsil Proqramı (kurikulum) tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə subbakalavr hazırlığını həyata keçirən bütün peşə təhsili müəssisələri üçün məcburidir.

1.4 Strukturda istifadə olunan işarələr:
**İTP –** ixtisas üzrə Təhsil Proqramı
**ÜK –** ümummədəni kompetensiyalar
**PK –** peşə kompetensiyaları

1.5 **“Saç və gözəllik xidmətlərinin təşkili”** ixtisası üzrə təhsil proqramlarının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ixtisas dərəcəsi:

| | |
|---|---|
| **İxtisasın şifri və adı:** | 030210 “Saç kəsimi və gözəllik xidmətlərinin təşkili” |
| **İxtisas qrupu / İqtisadi sektorlar:** | Bərbərlik |
| **Peşə təhsili səviyyəsi:** | Yüksək texniki peşə təhsili |
| **İxtisas dərəcəsi:** | “Saç kəsimi və gözəllik xidmətlərinin təşkili” ixtisası üzrə subbakalavr |
| **Peşə təhsili səviyyəsi** | Yüksək texniki peşə təhsili |
| **Kreditlərin sayı:** | 180 |
| **AzMKÇ səviyyəsi:** | 5 |
| **İSCED kodu:** | 1012 Hair and beauty services |
| **Məşğulluq təsnifatında kodu:** | 514 |
| **Qəbul şərtləri:** | Ən azı ümumi orta təhsil |
| **Təhsil forması və müddəti:** | Əyani, Tam orta təhsil bazasından 3 il;<br>Ümumi orta təhsil bazasından 4 il. |
| **Məşğulluq imkanları:** | “Saç kəsimi və gözəllik xidmətlərinin təşkili” ixtisasını bitirən şəxslər gözəllik mərkəzlərində, gözəllik salonlarında, sahibkar və ya özünüməşğulluq şəklində fəaliyyət göstərirlər. |

030210 “Saç kəsimi və gözəllik xidmətlərinin təşkili” ixtisası Azərbaycan Respublikasının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nin (AzMKÇ) 5-ci səviyyəsinə uyğundur.

1.6 Təhsil proqramı üzrə bir semestrə 30 kredit müəyyənləşdirilir. Bir kredit tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq işinə bərabərdir. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadan-kənar yükünün ümumi həcmi 45 saatdır. Tələbənin həftəlik işinin həcmi 1,5 kreditdir. Buraxılış dövlət və semestr imtahanlarına

hazırlığa, imtahanın verilməsinə və təcrübələrin keçirilməsinə ayrılmış hər bir həftə 1,5 kreditə bərabərdir. Tələbə üçün hər semestrdə 30 kreditə qədər modul və fənlərin tədrisi müəyyənləşdirilir. Müvəffəqiyyətlə təhsil alan tələbələrə əlavə ödəniş etmədən təhsil aldığı ixtisas üzrə əlavə modul (modullar) seçməyə icazə verilir və bütün hallarda bir semestrdə tələbənin götürdüyü kreditlərin sayı 40-dan çox olmamalıdır.

1.7 Müəyyən olunmuş kreditin tələbə tərəfindən yığılması məcburidir. Kreditləri müəyyən səbəblərdən qazanmayan (qazana bilməyən) tələbənin həmin modul/fənn üzrə akademik borcu qalır. Cari semestrdə müəyyən səbəbdən imtahanda (imtahanlarda) iştirak etməyən və (və ya) həmin semestrdə akademik borcu yaranmış tələbəyə növbəti semestrin dərsləri başlayanadək bir dəfə həmin imtahanı (imtahanları) vermək imkanı yaradılır. Əlavə olaraq tələbə hər bir semestrdə modul (fənni) dinləmədən akademik borcu əvvəlki semestrdə (semestrlərdə) yaranmış iki modul üzrə (hər moduldan bir dəfə olmaqla) də imtahanda iştirak edə bilər.

## 2. “Saç kəsimi və gözəllik xidmətlərinin təşkili” ixtisası üzrə məzunların ixtisas xarakteristikası və kompetensiyası

### 2.1 Subbakalavrın ixtisas xarakteristikası

**“Saç kəsimi və gözəllik xidmətlərinin təşkili”** ixtisası üzrə məzun olan mütəxəssis

Müasir dövrdə saçlara qulluq və gözəllik xidmətləri insanların həyatında mühüm yer tutur. Xüsusi inkişaf tempi ilə fərqlənən bu sektor həmçinin bacarıqlı kadr hazırlığına ehtiyac duyulmaqdadır. Xüsusən su sektorda insanlara xidmət, sanitar və gigiyenik, sağlamlıq istiqaməti üzrə qoyulmuş tələblərin olması bu sektor üzrə kadr hazırlığının əhəmiyyətini bir daha sübut edir.

Proqram üzrə təhsil aldıqdan sonra mütəxəssis saç kəsimi, qulluq və forma vermə, dəri və bədənə qulluq xidmətləri üzrə fəaliyyətləri icra etmək üçün lazımi səriştələri əldə edəcəkdir. Məzun makyaj, epilyasiya-depilyasiya, bədən, əl və ayaq qulluq tədbirləri, kompüter ilə saç və makyaj dizaynı sahəsində nəzəri bilik və praktiki bacarıqlar əldə edəcəkdir. Həmçinin tələbələr sektor üzrə elmi və texnoloji yenilikləri izləmək və tətbiqi ilə bağlı səriştələr əldə edəcəklər.

Gözəllik mərkəzlərində və ya sərbəst şəkildə fəaliyyət göstərərək saçlara qulluq tədbirlərini, saç kəsimi, formaya salma, rənglənməsi, düzüm verməк və rəngini dəyişmək kimi xidmətləri icra edəcəkdir. Saçın qaynaq edilərək uzadılması, süni saçlar (parik-şinyon taxılması) və saçların bərpa edilməsi də onun vəzifələrinə daxildir. Sağlamlıq və əməyin mühafizəsi qanunvericiliyində nəzərdə tutulmuş tədbirlərə və ətraf mühit qaydalarına uyğun olaraq saç kəsimi, dəri və bədənə qulluq tədbirlərini müştəri istəklərini nəzərə almaqla həyata keçirməyi bacaracaqdır. Həmçinin, mütəxəssis müxtəlif qrimlər hazırlayaraq tədbir və səhnə qrim və makyajının icrası, kosmetika məhsulları üzrə müştərilərə məsləhətin verilməsikimi fəaliyyətləri icra etməyi bacaracaqdır.

Məzunlar üçün sektorda və ya fərdi sahibkarlıq fəliyyəti olaraq geniş məşğulluq imkanları mövcuddur. Məzunlar estetik və kosemtoloji mərkəzlərin kosmetologiya bölmələrində, Spa və istirahər mərkəzləri və otellərin Spa və gözəlllik mərkəzlərində “Kosmetoloq, texnik” kimi vəzifələri, film çəkilişi, teatr, televiziya və müxtəlif sənətkarlıq tədbirlərində səhnə makyajı və qrim işlərinin icrası, müxtəlif bərbərlik və gözəllik xidmətləri salonlarında “Bərbər”, “Makyajçı”, “Vizajist” və digər peşələri, Spa və istirahət mərkəzlərində, otellərin spa mərkəzlərində və fiziki reabilitasiya mərkəzlərində Masajist, Spa terapest kimi peşələri icra edə biləcəkdir. Həmçinin saç, dəri və bədənə qulluq məhsullarının satışını həyata keçirən şirkət və ticarət obyektlərində satış təmsilçisi, kosmeçevt kimi fəaliyyət göstərə biləcəkdir.

#### 2.1.1 **Peşə fəaliyyətinin əsas istiqamətləri (vəzifə və funksiyalar):**

- Saç kəsimi və gözəllik xidməti salonlarının işə hazırlanması, işin təşkili və idarə etmək
- Saç kəsimi və vizaj fəaliyyəti ilə bağlı işlərin planlaşdırması və işə hazırlıq (alət və avadanlıqları işə hazırlamaq, ləvazimatlarının düzgün saxlanması və paylanması və s.)
- Müştərinin istəyini müəyyən etmək üçün ona şəkil və kataloqları təqdim etmək, bu barədə müvafiq məsləhət vermək
- Saçın kəsimi, rənglənməsi və forma verilməsini həyata keçirmək
- Epilyasiya və bədənə qulluq prosedurlarını icra etmək
- İş yerinin xidmətdən sonra təmiz saxlanması, alət və avadanlıqlara texniki qulluq göstərilməsini icra etmək
- Makiyaj məhsulları və avadanlıqlarından istifadə etməklə makijay etmək
- Kompüterdə müxtəlif saç dizaynları hazırlamaq

2.1.2 **Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər:**

İxtisas üzrə:

- İnsan anatomiyası və fiziologiyası, saç, dəri və dırnaq xəstəlikləri, həmçinin yoluxucu xəstəlikləri tanıyır və müdaxilə prosedurları və gigiyena ilə bağlı tələbləri bilmək;
- Saç kəsimi və gözəllik xidmətlərinin təşkili ilə əlaqədar iş yerinin siyasət və prosedurları bilmək;
- Müxtəlif saç kəsmə metod və üsulları, o cümlədən hörmə, yığma, burma və boyama üsulları icra etmək;
- Müştəri istəyinə uyğun əl və ayaqlara qulluq, dəriyə və bədənə qulluq tədbirlərini icra etmək;
- Müştəri istəyi və ehtiyaca uyğun masaj və makyaj texnikalarını qaydalara uyğun tətbiq etmək;
- Epilyasiya avadanlıqlarından düzgün istifadə etməklə bədənə qulluq tədbirlərini icra etmək;
- Müştəri və ya fərdi xidmətlərin göstərilməsi ilə əlaqədar prinsiplər və proseslər, o cümlədən tələblərin qiymətləndirilməsi üsulları, keyfiyyətli xidmət üzrə standartlarını bilmək;
- Məhsul və ya xidmətlər haqqında məlumat verilməsi, satışının təşviq edilməsi və həyata keçirilməsi ilə əlaqədar prinsip və üsullar barədə məlumatlılıq;
- Peşə fəaliyyəti ilə bağlı qaydalar, tənzimləmələr və yenilikləri bilmək;
- Peşə fəaliyyətində müasir texnologiya, İKT və yenilikləri tətbiq etmək.

Yumşaq bacarıqlar (soft skills):

- Zamanın idarə olunması
- Problem həll etmə
- Yaradıcılıq
- Problemləri dinləmək və konflikt həll etmə
- Ünsiyyət

**2.2. Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.**

2.2.1 Məzun aşağıdakı ümummədəni kompetensiyalara (**ÜK**) yiyələnməlidir:

- Kollektivdə işləmək **(ÜK-1);**
- Öz sahəsi və digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq **(ÜK-2);**
- Etik normalara malik olmaq **(ÜK-3);**
- Sağlam həyat tərzini gözləmək **(ÜK-4);**
- Tənqid və özünətənqidə dözümlülük göstərmək **(ÜK-5);**
- Problemli şəraitlərdə təşəbbüskarlıq göstərmək və məsuliyyəti öz üzərinə götürmək **(ÜK-6);**
- Dövlət dilində sərbəst danışmaq **(ÜK-7);**
- Xarici dildə ünsiyyətdə olmağı və fikrini ifadə etməyi bacarmaq **(ÜK-8);**
- İKT-dən istifadə etməyi bacarmaq **(ÜK-9);**
- Karyera planlaması və karyera yüksəlişi üçün öz inkişafına, peşəkarlığının artırılmasına çalışmaq **(ÜK-10);**
- Fikrini düzgün və yığcam ifadə etmək **(ÜK-11);**
- Peşə fəaliyyəti və gündəlik həyatda əmək təhlükəsizliyi və sağlamlıq qaydalarına riayət etmək və digər şəxslərə məlumatlandırmaq **(“ÜK-12).**
- Xidmət göstərdiyi fəaliyyəıt sahəsi üzrə daim yenilkləri araşdırmaq **(ÜK-13)**

2.2.2 Məzun aşağıdakı peşə kompetensiyalarına **(PK)** yiyələnməlidir:

- fəaliyyət sahəsinə aid olan, peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən təşkilatların, müəssisələrin, şirkətlərin və s. əsas problemlərini sistemləşdirməyi bacarmaq, onların kompleks təhlilini aparmaq və idarəetmə məqsədləri üçün konkret nəticə çıxarmaq və aradan qaldırmaq **(PK-1);**
- mövcud tələbləri müvəffəqiyyətlə müəyyənləşdirə bilmək və uyğun bir həll metodu seçmək və tətbiq etmək **(PK-2);**
- peşə fəaliyyətində İKT-dən istifadə etmək **(PK-3);**
- müəyyən vəzifələr qoymağı, onları həll etmək üçün uyğun metodları seçməyi və tətbiq etməyi bacarmaq **(PK-4);**
- ixtisasla əlaqəli əsas anlayış və terminlərin mənasını bilmək və praktikada tətbiq etmək **(PK-5).**
- ixtisasla bağlı müxtəlif layihələrin planlaşdırılması və icrasında iştirak etmək **(PK-6);**
- ixtisasla bağlı aşağıdakı bilik, bacarıq və səritşərlərə yiyələnmək **(PK-7)**.
    - Dəri növlərini və dəri xəstəliklərini tanıyır, dərinin təhlilini aparır **(PK-7.1)**.
    - İnsan anatomiyası və fiziologiyası haqqında biliklərə malikdir **(PK-7.2)**.
    - Saç, saçlı dəri və dırnaq xəstəliklərini fərqləndirir **(PK-7.3)**.
    - Masaj növlərini bilr və masaja teknikalarını icra etməyi bacarır **(PK-7.4)**.
    - Saç kəsimi və gözəllik xidmətləri sahəsində hüquqi tənzimləmələri və qaydaları bilir və dəyişiklikləri izləyir **(PK-7.5)**.
    - Sektorda qabaqcıl istehsalçı və təşkilatları tanıyır və əlaqə qurmağı bacarır, yenilikləri izləyir **(PK-7.6)**.
    - Saç kəsimi və gözəllik xidmətlərinə aid bərbər, gözəllik salonu və spa mərkəzlərində isitfadə edilən alət və avadanlıqlardan istifadə edir, lazımi texniki qulluq göstərir və yeni çıxan alət və avadanlıqlardan istifadə etməyi bacarır **(PK-7.7)**.
    - Gözəllik və bərbər salonlarında saçın təhlilini edir, saç dizaynı, rənglənməsi və müxtəlif forma vermə fəaliyyətlərini icra edir **(PK-7.8)**.
    - Gözəllik və SPA mərkəzlərində müxtəlif masaj növləri və texnikalarının, makyaj texnikasını tətbiq edir **(PK-7.9)**.
    - Lazımi alə və avadanlıqlardan istifadə etməklə epilyasiya və bədənə qulluq tədbirlərini icra edir **(PK-7.10)**.
    - Peşə fəaliyyəti ilə bağl kimyəvi boya və məhlullardan düzgün və təhlükəsiz istifadə edir **(PK-7.11)**.
    - Saç kəsimi və gözəllik xidmətləri göstərən müəssisələrdə fərdi və ya kollektiv şəkildə müştəriyə xidmət göstərilməsini bacarır **(PK-7.12)**.
    - Saç kəsimi və gözəllik xidməti göstərən müəssisələrində işi təşkil edir və idarəetməni həyata keçirir **(PK-7.13)**.
    - Müstəqil olaraq sərbəst və ya kompüter vasitəsi ilə saç dizaynı etməyi bacarır **(PK-7.14)**.
    - Peşənin tələb etdiyi etik qaydalar, peşə standartından irəli gələn öhdəlikləri bilir **(PK-7.15)**.

## 3. “Saç kəsimi və gözəllik xidmətlərinin təşkili” ixtisası üzrə təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər

Humanitar və baza modulları bölümünə daxil olan modullar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11.03.2019-cu il tarixli, 85 №-li qərarı ilə təsdiq olunmuş «Peşə təhsilinin dövlət standartları»nda əks olunan “ömürboyu təhsil” prinsipinə uyğun müəyyənləşdirilmişdir.

Humanitar və baza modulları bölümü üzrə təhsilalan “ömürboyu təhsil” prinsipinə uyğun olaraq aşağıdakı bilik və bacarıqlar əldə edəcəkdir:

- ixtisas üzrə peşə fəaliyyətini təmin edən ana dilində və xarici dildə yazılı və şifahi ünsiyyət qurmaq üçün nəzəri və təcrübi biliklərə malik olmalı;
- ixtisas üzrə qazanılmış biliklərdən istifadə etməli;
- informasiyanın toplanması və emalında müasir üsullardan istifadə etməli, müxtəlif hesablamaları aparmalı;
- ixtisas sahəsinin əsas problemlərini dərk etmək, onların konkret tətbiq sahələrini bilməli;
- peşə fəaliyyəti dairəsinə aid olan məlumatların işlənilməsi və saxlanılmasında kompyuter texnologiyasından istifadə etməli;
- peşə fəaliyyətində sahibkarlıq düşüncəsini və ideyalarını əsas götürməli;
- peşə fəaliyyətində peşənin tələb etdiyi işgüzar etika və davranış qaydalarına əməl etməli;
- peşə fəaliyyətində “ömür boyu” öyrənmə prinsiplərini rəhbər tutaraq şəxsi inkişafa və düzgün karyera planlamasını əsas götürməlidir.

İxtisas üzrə baza biliklərinin formalaşmasına imkan verəcək aşağıdakı modulların tədrisi də bu bölümdə icra edilir (məs. Layihə İdarə edilməsi, İstehsalatın İdarəedilməsi və s.). Bu təhsilalana texniki biliklərin formalaşması, həmçinin gələcək iş prosesində müəyyən idarəçilik funksiyalarının icrası üçün tələb olunan səriştələrin əldə edilməsinə istiqamətlənir.

### 3.1 İxtisas üzrə modul və fənn bölümləri, modul və fənn mənimsənilməsi (təlim) nəticələri (bilik, bacarıq və yanaşma baxımından) və kreditləri, qazanılması nəzərdə tutulan kompetensiyaların kodları:

#### 3.1.1 Ümumtəhsil fənlər bölümü:

Ümumtəhsil fənlərin bölməsinə daxil olan fənlər 29 mart 2019-cu il 1532-VQ nömrəli “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının Qanunun və “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları” haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarının tələblərinə uyğun müəyyənləşdirilmişdir.

Ümumi orta təhsil bazasından qəbul olunmuş qruplarda tədrisin birinci ilində ümumtəhsil fənləri tədris olunduğu üçün kredit sisteminə daxil edilmir.

| Fənn bölümünün kodu | Fənlərin adı | Saat miqdarı (həftəlik) |
|---|---|---|
| ÜF-B01 | Azərbaycan dili | 3 |
| ÜF-B02 | Xarici dil | 4 |
| ÜF-B03 | Riyaziyyat | 4 |

| | | |
|---|---|---|
| ÜF-B04 | Fizika | 1 |
| ÜF-B05 | Kimya | 1 |
| ÜF-B06 | Ədəbiyyat | 1 |
| ÜF-B07 | Azərbaycan tarixi | 2 |
| ÜF-B08 | Coğrafiya | 1 |
| ÜF-B09 | Ümumi Tarix | 1 |
| ÜF-B10 | Biologiya | 1 |
| ÜF-B11 | İnformatika | 3 |
| ÜF-B12 | Fiziki tərbiyə | 2 |
| ÜF-B13 | Çağırışaqədərki hazırlıq | 2 |
| ÜF-B14 | İkinci xarici dil | 2 |
| İT - B01 | Praktiki laboratoriya dərsləri / istehsalat təlimi | 7 |
| **Cəmi:** | | **35** |
| Qeydlər: | | |
| Ümumtəhsil fənləri tədris olunduğu halda, həmin fənlərə kreditlər ayrılmır. Tədris müddəti 38 həftə (18/20) davam edir. | | |

Ümumi orta təhsil bazasından qəbul olunmuş qruplarda peşə təhsilinin dövlət standartında göstərilmiş “Ana dilində ünsiyyət” səriştəsi “Azərbaycan dili”, “Xarici dildə ünsiyyət” səriştəsi “Xarici dil”, “İnformasiya texnologiyaları” səriştəsi “İnformatika”, “Hesablama əməliyyatlarını yerinə yetirmə” səriştəsi isə “Riyaziyyat” fənni proqramına inteqrasiya olunmuş şəkildə, həmçinin ixtisasın tələbləri nəzərə alınmaqla uyğunlaşdırılmış proqram əsasında tədris edilir.

“Xarici dil” və “İnformatika” fənnin tədrisi tələbələrin sayı 15 (on beş) və daha çox olan qruplarda müvafiq maddi-texniki baza və ixtisas müəllimləri olduğu halda 2 (iki) qrupa bölünərək aparılır.

“Xarici dil” fənnində tədrisi nəzərdə tutulan xarici dilin seçimi zamanı tədris qruplarında təhsil alan tələbələrin mütləq çoxluğu nəzərə alınaraq ümumtəhsil pilləsində təhsil aldıqları “əsas xarici dil” əsas götürülür.

Praktiki laboratoriya dərsləri və ya istehsalat təlimi tədrisi təhsil müəssisəsi tərəfindən laboratoriya və emalatxana şəratinə əsasən tədris edilir.

İxtisasın tələbinə uyğun olaraq ikinci xarici dilin tədrisi aparılmadıqda onun saatları əsas xarici dilə verilir.

**3.1.2 Kadr hazırlığı üçün tələb olunan modul və fənn bölümü:**

| Modul / Fənn | Təlim nəticəsi | Mənimsənilmə nəticələri | | | Modullar üzrə kredit-lərin sayı | Kompetensiyaların kodları |
|---|---|---|---|---|---|---|
| | | **Bilik** | **Bacarıq** | **Yanaşma** | | |
| **Təhsil hissəsi** | | | | | | |
| **HBM – B00** | **Humanitar və baza modullar bölümü**<br>Bu bölümə daxil olan modulların öyrənilməsi nəticəsində subbakalavr: | | | | | |
| **HBM–B01**<br>Azərbaycan tarixi | | - Azərbaycan tarixinin əsas mərhələləri və xronologiyası barədə təsəvvürə, müstəqillik yolunda qazandığı nailiyyətlər, tarixi şəxsiyyətlər və əsas tarixi hadisələr haqqında məlumata malik olmalı; | Tarixi inkişaf mərhələlərini müqayisə və təhlil etməyi, tarixin qiymətləndirilməsinə dair öz mövqeyini əsaslandırmağı və fikrini ifadə etməyi. | | **5** | **ÜK-1**<br>**ÜK-2**<br>**ÜK-5** |
| **HBM–B02**<br>Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | | - Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilməli, nitqin düzgünlüyü, aydınlığı və dəqiqliyi naminə sözləri düzgün tələffüz etməyi; | Azərbaycan dilinin leksikonundan peşə fəaliy-yətində istifadə etməyi, dil qaydalarına uyğun danışmağı və yazmağı, rəsmi və işgüzar üslubda yazmağı və danışmağı; | | **4** | **ÜK-7**<br>**ÜK-3**<br>**ÜK-4**<br>**ÜK-11** |
| **HBM-B03 / B04 / B05**<br>İnformasiya texnologiyaları | | - İnformasiya texnologiyalarından istifadə etməklə ixtisas aid məlumat, əldə etmək və tətbiqi imkanlarını; | - İnformasiya texnologiyalarından təhlükəsiz şəkildə istifadə etməyi və rəqəmsal məzmun yaratmağı, müvafiq sosial media vasitələrindən istifadə etməyi; | İKT, sosial media və digər proqram təminatlarından peşə fəaliyyətində istifadə etmək vərdişlərinə. | **6** | **ÜK-9**<br>**PK-2**<br>**ÜK-13** |
| **HBM-B06 / B07 / B08 / B09**<br>Xarici dildə işgüzar və | | - Xarici dildə olan ixtisasa aid ədəbiyyatı oxuyub başa düşməyi; | - Xarici dildə olan ixtisasa aid ədəbiyyatı lüğətlə tərcümə et-məyi, tərcümeyi-hal və digər rəsmi sənədləri xarici dildə | Xarici dildə olan material-lardan peşə fəaliyyətində | **12** | **ÜK-1**<br>**ÜK-8**<br>**ÜK-13** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| akademik kommunikasiya | | | tər-tib etməyi, xarici dildə yazılı və şifahi ünsiyyət qurmağı; | istifa-də etmək vərdişlərinə. | | |
| **HBM-B10 / B11** Texniki hesab | | Məsələlərin həllində riyazi düşüncə nümayiş etdirməyi, və peşə fəaliyyəti ilə bağlı riyazi düşüncəni tətbiq etməyi; | - İxtisas uyğun müvafiq hesablamalar aparmağı, qrafik və cədvəlləri hazırlamaq və istifadə etməyi, təsviri statistikadan istifadə etməyi; | Riyazi yanaşma və metodlardan peşə fəaliyyətində istifadə etmək vərdişlərinə. | **4** | **ÜK-2 PK-3** |
| **HBM-B12** Şəxsi inkişaf və karyera planlaması | | Fərdi özünü inkişaf və karyera planlaması üzrə yanaşma və tətbiqləri başa düşməyi; | - Karyera məqsədlərini müəyyən etməyi, karyera inkişafında müasir işaxtarma və müraciət üsullarından istifadə etməyi; | Fərdi və karyera inkişafı üçün müasir planlama və tətbiq mexanizmləri ndən istifadə etmək vərdişlərinə. | **3** | **ÜK-6 ÜK-10** |
| **HBM-B13** Layihənin İdarə edilməsi | | Layihələrin hazırlanması, idarə edilməsi və monitorinqi mərhələlərini izah etməyi və fəaliyyətlərin düzgün planlaması tətbiq etməyi; | - Müxtəlif ölçülü layihələrin idarə edilməsi üçün layihə planlaması və idarə edilməsi üzrə alət və üsullardan istifafə etməyi; | Layihə planlanması və idarə edilməsi üzrə müasir yanaşma və vərdişlərə | **3** | **PK-6** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **HBMS–B00** | **Seçmə modullar*** | | | | | |
| **HBMS-B01** Etika və estetika (İşgüzar Etika) | | Peşəkarlıq prinsipləri və iş yerində davranış qaydalarını; | Peşəkarlıq prinsipləri və komanda ilə səmərəli işləməni, vaxtdan səmərəli istifadə etməyi, iş yerində davranış qaydalarına əməl etməyi; | Peşəkarlıq və səmərli iş prinsiplərini, iş yerində düzgün davranış | **3** | **ÜK-1 ÜK-3 ÜK-4 ÜK-5** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | qaydalarından peşə fəaliyyətində istifadə etmək vərdişlərinə. | | |
| **HBMS-B02** Estetika və Mədəni İfadə | | - Kreativlik və estetika anlayışlarını, etiket və nəzakət qaydalarını başa düşməyi; | - Kreativlik və estetika anlayışlarını, etiket və nəzakət qaydalarını təhlil edərək onlardan istifadə etməyi; | Peşə fəaliyyətində etiket bə nəzakət qaydalarından istifadə etmək vərdişlərinə. | **3** | **ÜK-1 ÜK-3 ÜK-4 ÜK-5** |
| **HBMS-B03** Sahibkarlığın əsasları və biznesə giriş | | - Sahibkarlıq düşüncəsi və yanaşmalarını və onların peşə fəaliyyətində tətbiqi imkanlarını başa düşməyi; | - Peşə fəaliyyəti üzrə tətbiq edilə bilən sahibkarlıq ideyalarını müəyyən etməyi, biznes planlar hazırlamağı və biznes planları təhlil edərək onları tətbiq etməyi; | Peşə fəaliyyətində sahibkarlıq düşüncəsi və sahibkarlıq istiqamətində planlar hazırlama və tətbiq etmək vərdişlərinə. | **3** | **PK-1 PK-6** |
| **HBMS-B04** İstehsalatın idarə edil**m**əsi | | - İxtisasına aid istehsalat sahələrinin əsas idarəetmə prinsip və mexanizmlərini başa düşməyi; | - Peşə fəaliyyətindən asılı olaraq istehsalatın planlanması və idarə edilməsi ilə bağlı prinsipləri düzgün formada tətbiq etməyi; | İxtisasa aid istehsalatın idarə edilməsinin əsas prinsiplərinin peşə fəaliyyətində istifadə etmək vərdişlərinə. | **3** | **PK-1 PK-6** |

| Modul / Fənn | Təlim nəticəsi | Qiymətləndirmə meyarları | Modullar üzrə kreditlərin sayı | Kompetensiyaları n kodları |
|---|---|---|---|---|
| **Təhsil hissəsi** | | | | |
| **SGX-İM-B00** | **İxtisas peşə hazırlığı modulları bölümü**<br><br>Bu bölümə daxil olan modulların öyrənilməsi nəticəsində subbakalavr: | | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə insan orqanizminin anatomik və fizioloji quruluşunu, ali sinir sisteminin fəaliyyətini, sümük, oynaq və əzələlərin quruluşunu və iş prinsipini, sistemləri təşkil edən orqanların quruluşunu və xüsusiyyətlərini biləcək və fəaliyyətlərini fərqləndirməyi bacaracaqdır. | | | | |
| **SGX-İM-B01**<br><br>Anatomiya və fiziologiya | İnsan orqanizminin anatomik və fizioloji quruluşunu bilir və sinir sistemlərini fərqləndirməyi bacarır. | 1. İnsan anatomiyasının əsas anlayışlarını izah edir.<br>2. İnsan fiziologiyasının əsas xüsusuiyyətlərini izah edir.<br>3. Sinir sisteminin anatomik quruluşunu izah edir.<br>4. Somatik və vegetativ sinir sistemlərini bir-birindən ayırır.<br>5. Ali sinir fəaliyyətinin fiziologiyasını təsvir edir. | **3** | **PK-1**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-7** |
| | Sümük, oynaq və əzələlərin quruluş və iş prinsipini bilir | 1. İnsan skeletinin quruluşunu və əsas xüsusiyyətlərini izah edir.<br>2. Əzələ sistemi və oynaqların  anatomik quruluşunu izah edir.<br>3. Əzələlərin ümumi morfoloji-funskional xüsusuiyyətlərini ayırd edir. | | |
| | Sistemlər və onları təşkil edən orqanların quruluşunu və funksiyalarını bilir və fəaliyyətlərinə görə fərqləndirməyi bacarır. | 1. Tənəffüs sisteminin əsas funksiyalarını fərqləndirir.<br>2. Həzm sisteminin əsas xüsusuiyyətlərini ayırd edir.<br>3. Duyğu orqanlarının anatomik və fizioloji xüsusiyyətlərini sadalayır.<br>4. Qan-damar sistemi haqqında əsas anlayışları sadalayır.<br>5. Endokrin sistemin əsas funskiyalarını izah edir.<br>6. Sidik-cinsiyyət sisteminin funksional xüsusuiyyətlərini izah edir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə mikrobiologiya haqqında əsas anlayışları, şəxsi gigiyena qaydalarını,dezinfeksiya və sterilizasiyanın üsullarını biləcək və iş əsnasında tətbiq etməyi bacaracaqdır. | | | | |

| | | | | |
|---|---|---|---|---|
| **SGX-İM-B02**<br><br>Gigiyena və sterilizasiya | Mikrobiologiya haqqında əsas anlayışları bilir. | 1. Mikrobiologiyanın tarixini bilir.<br>2. Mikroorqanizmləri növlərinə görə ayırd edir.<br>3. Bakteriya, göbələk və virusların əsas xüsusiyyətlərini sadalayır.<br>4. Müxtəlif növ yolxucu xəstəliklərin əsas xüsusiyyətlərini izah edir.<br>5. Yolxucu xəstəliklərə qarşı görülən tədbirləri təhlil edir. | **3** | **PK-1**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-7** |
| | Şəxsi gigiyena qaydalarını bilir və iş əsnasında tətbiq etməyi bacarır. | 1. Ümumi bədən təmizliyinin əhəmiyyətini izah edir.<br>2. Əl və ayaqlara qulluq qaydalarını tətbiq edir.<br>3. Müxtəlif əlcək növlərindən təyinatına görə istifadə edir.<br>4. İş geyimləri və qoruyucu vasitələrdən iş şəraitinə uyğun istifadə edir. | | |
| | Dezinfeksiyanın növlərini bilir və iş əsnasında tətbiq etməyi bacarır. | 1. Dezinfeksiya və antiseptik prosedurları fərqləndirir.<br>2. Müxtəlif növ dezinfeksiya üsullarını tətbiq edir.<br>3. Dezinfeksiyaedici maddələrin hazırlanması və istifadəsi zamanı nəzərə alınmalı olan məqamları təhlil edir.<br>4. Antiseptik olaraq istifadə olunan kimyəvi maddələrin tətbiqi sahələrini ayırd edir. | | |
| | Saç və gözəllik xidmətlərində istifadə olunan alət və avadanlıqların sterliziasiyasını həyata keçirməyi bacarır. | 1. Sterliziasiyanın əhəmiyyətini izah edir.<br>2. İsitilk sterilizasiya üsullarını təhlil edir.<br>3. Mexaniki üsullarla sterilizasiya haqqında məlumatlıdır.<br>4. Şüalanma ilə sterilizasiyanı izah edir.<br>5. Kimyəvi maddələrlə strelizasiya prosesini həyata keçirir.<br>6. Sterilizasiya olunacaq alət və avadanlıqların xüsusiyyətlərini təhlil edir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə kişi və qadın saçlarına qulluq etməyi, forma verməyi, saçlarda müxtəlif düzümlər etməyi və qadın saçlarına müxtəlif növ qaynaq tətbiq etməyi bacaracaqdır. | | | | |
| **SGX-İM-B05**<br><br>Saça forma vermə və qulluq | Kişi və qadın saçlarını müxtəlif üsullarla yumağı bacarır | 1. İş yerində təhlükəsizlik qaydalarına uyğun olaraq müştərinin saçını yumaq üçün iş yerini və müvafiq alət və avadanlıqları hazır vəziyyətə gətirir.<br>2. Saçın növünə uyğun saç yuma vasitəsini (şampun) müəyyən edir. | **4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5** |

| | | | | |
|---|---|---|---|---|
| | | 3. Saçın növünə uyğun (təbii, boyanmış, qaynaq və s.) üsullarla yuyur.<br>4. Saçları yuduqdan sonra qulluq vasitələri tətbiq edir. | | **PK-7** |
| | Saç və dəriyə uyğun uyğun saça qulluq üsullarını tətbiq etməyi bacarır | 1. Qulluq üsullarına uyğun alət və avadanlıqları müəyyən edir (klimazon, voparizator, suşuar, istilik papağı)<br>2. Botoks qulluq vasitəsini tətbiq edir.<br>3. Keratin qulluq vasitəsini tətbiq edir.<br>4. Laminasiya vasitəsilə saçlara qulluq prosedurunu icra edir.<br>5. Kollagen vasitəsilə saçlara qulluq edir.<br>6. Protein saç qulluğu üsulunu tətbiq edir. | | |
| | Qadın saçlarına forma verilməsinin tarixi inkişaf mərhələlərini bilir və fərqli saç formaları tətbiq etməyi bacarır. | 1. Qadın saç formalarının tarixi inkişaf mərhələsini izah edir.<br>2. İş prinsipinə uyğun olaraq saç düzümündə istifadə olunan alətləri ayırd edir.<br>3. Saç düzümünün elementlərini fərqləndirir (hörük, kəndir, buruq, düyün, topuz, çarpaz)<br>4. Elementlərdən istifadə etməklə fərqli saç düzümlərini modelləşdirir. | | |
| | Müştərinin istəyinə uyğun olaraq kişi saçlarına forma verməyi bacarır. | 1. Müştərini və müvafiq alətləri saça forma verməzdən öncə hazırlayır.<br>2. Qurutma alətlərindən (fen, maşa və s.) istifadə etməklə saça müxtəlif formalar verir.<br>3. Kişi saçlarında müxtəlif saç düzümləri tətbiq edir (dred, afrohörüklər, erakez). | | |
| | Müvafiq texnikadan istifadə etməklə saça qaynaq etməyi bacarır. | 1. Müştərini və müvafiq alətləri saça qaynaq etməzdən öncə hazırlayır.<br>2. Müştərinin istəyinə və saçının xüsusiyyətlərinə uyğun qaynaq modelini müəyyən edir.<br>3. Müştəriyə mikro sokap qaynağı tətbiq edir.<br>4. Müştəriyə keratin qaynaq tətbiq edir.<br>5. Müştəriyə toz muncuq qaynağı tətbiq edir<br>6. Müştəriyə lent qaynağı tətbiq edir. | | |

| | | | | |
|---|---|---|---|---|
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə üzün anatomik quruluşunu, makiyajda rəng və işıq anlayışlarını biləcək, makiyajın müxtəlif növlərini tətbiq etməyi bacaracaqdır. | | | | |
| **SGX-İM-B07**<br><br>Makiyajın əsasları | Üzün anatomiyası haqqında əsas anlayışları bilir. | 1. Üz sümüyünün ümumi quruluşunu təsvir edir.<br>2. Əsas üz formalarını izah edir.<br>3. Üzdə və baş dərisində yerləşən damarları müəyyən edir. | **4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7** |
| | Rəng və işıqla bağlı əsas anlayışları bilir və makiyajda tətbiq etməyi bacarır. | 1. Tamamlayıcı və zidd rəngləri tanıyır.<br>2. Makiyaj zamanı rənglərdən düzgün istifadə edir.<br>3. İşığın rənglər üzərində təsirini izah edir.<br>4. Makiyaj zamanı işığı düzgün tətbiq edir. | | |
| | Üzün quruluşuna uyğun təbii makiyaj etməyi bacarır. | 1. Təbii gözəllik makiyajının əsas prinsiplərini izah edir.<br>2. Müştərini makiyaja hazırlayır.<br>3. Süngər və fırçalardan təyinatına görə istifadə edir.<br>4. Müştərinin üz cizgilərinə kontur tətbiq edir.<br>5. Müştərinin dəri rənginə uyğun tonal krem tətbiq edir.<br>6. Müştəriyə uyğun göz makiyajı edir.<br>7. Müştərinin üz quruluşuna uyğun ənlik tətbiq edir.<br>8. Müştəriyə dodaq boyası çəkir. | | |
| | Parıldadıcı və kölgə üsulu ilə makiyaj etməyi bacarır. | 1. İşıq və kölgə üsulu ilə edilən makiyajın əsas xüsusiyyətlərini izah edir.<br>2. Müştərini makiyaja hazırlayır.<br>3. Müştərinin dəri tonuna uyğun tonal krem seçir.<br>4. Müştərinin üz quruluşuna uyğun kontur tətbiq edir.<br>5. Üzün müəyyən hissələrinə parıldadıcı (highlighter) tətbiq edir.<br>6. Göz makiyajında kölgələrdən (smokey eyes effekti) istifadə edir.<br>7. Kontur və dodaq boyalarından istifadə edərək dodaq makiyajı edir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | Kamuflyaj (qapatıcı) makiyajı etməyi bacarır. | 1. Kamuflyaj makiyajın əsas prinsiplərini bilir.<br>2. Müştərinin dərisində problemli nahiyələri təhlil edərək istifadə edəcəyi üsulu müəyyənləşdirir.<br>3. Müştərini makiyaja hazırlayır.<br>4. Müştərinin dəri tonuna uyğun qapatıcı kosmetik vasitələri müəyyən edir.<br>5. Müştərinin üz quruluşuna uyğun konturlama tətbiq edir.<br>6. Müştərinin makiyajını tamamlayır. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə əl, ayaq və dırnaqların quruluşunu, onlara qulluq zamanı istifadə olunan kosmetik vasitələrin təsnifatını biləcək və müxtəlif qulluq prosedurlarını həyata keçirməyi bacaracaqdır. | | | | |
| **SGX-İM-B03**<br><br>Əl-ayaq və dırnaqlara qulluq 1 | Əl, ayaq və dırnağın quruluşunu bilir və sağlamlığını dəyərləndirməyi bacarır. | 1. Əlin anatomik xüsusuiyyətlərini izah edir.<br>2. Ayağın anatomik quruluşunu izah edir.<br>3. Dırnaqların quruluşunu təhlil edir.<br>4. Əl-ayaq və dırnağın sağlamlığını dəyərləndirir. | **4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-7** |
| | Əl və ayaqlarda dırnaq xəstəlikləri barədə bilir və xəstəliklərə qarşı tədbir almağı bacarır | 1. Əl və ayaq dırnaqlarında tez-tez rastlanan xəstəlikləri müəyyən edir.<br>2. Mikroorqanizmlərin əl və ayaq dırnaqlarına təsirini izah edir.<br>3. Dırnaq pozuntularının sistem xəstəlikləri ilə əlaqəsini təhlil edir.<br>4. Dırnaq xəstəliklərinə qarşı profilaktik tədbirlər görür. | | |
| | Əl-ayaq və dırnaqlara qulluq zamanı istifadə olunan kosmetik vasitələri bilir və qulluq etməyi bacarır. | 1. Kosmetik məhsullardan istifadə edərəik əllərə qulluq edir.<br>2. Ayaqlara qulluq zamanı istifadə olunan kosmetik vasitələri müəyyən edir.<br>3. Dırnaq qulluğunda müxtəlif kosmetik məmulatları tətbiq edir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə saç kəsimi ilə bağlı əsas anlayışları, müxtəlif saç kəsimi formalarını və modellərini biləcək və fərqli saç kəsimi forma və texnikalarını tətbiq etməyi bacaracaqdır. | | | | |
| **SGX-İM-B06**<br><br>Saç kəsimi 1 | Saç kəsimi ilə bağlı əsas anlayışları və istifadə olunan alət və avadanlıqları bilir. | 1. Saç kəsiminin tarixi inkişaf mərhələlərini izah edir.<br>2. Saç kəsimi üçün istifadə olunan alət və avadanlıqları müəyyən edir.<br>3. Saç kəsiminin mərhələləri haqqında məlumat verir.<br>4. Müştərini saç kəsimi öncəsi prosesə hazırlayır. | **4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5** |

| | | | | |
|---|---|---|---|---|
| | Saç kəsimi formalarını bilir və tətbiq etməyi bacarır. | 1. Düz kəsim edir.<br>2. Proqressiv formada kəsim edir.<br>3. Dərəcəli kəsim növünü tətbiq edir.<br>4. Eyni formalı kəsim formasına uyğun saçı kəsir.<br>5. Qarışıq (kombinə edilmiş) kəsimi həyata keçirir. | | **PK-7** |
| | Saç kəsimi modellərini analiz etməyi və fərqli saç kəsimi texnikalarını tətbiq etməyi bacarır.. | 1. Müxtəlif üz quruluşlarını sadalayır.<br>2. Dəb və üsluba uyğun saç kəsimi texnikalarını izah edir.<br>3. Saçı xaricdən və içəridən müxtəlif üsullarla incəltməklə onlara genişlik və həcm verir.<br>4. Burma (kəndir) üsulu ilə saç kəsimini həyata keçirir.<br>5. Dərin nöqtə (pointing) kəsimi üsulunu tətbiq edir.<br>6. Qayçını sürüşdürməklə (slide) saç kəsimini icra edir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə mikrobiologiya haqqında əsas anlayışları, şəxsi gigiyena qaydalarını,dezinfeksiya və sterilizasiyanın üsullarını biləcək və iş əsnasında tətbiq etməyi bacaracaqdır. | | | | |
| **SGX-İM-B04**<br><br>Kosmetik məhsullar | Kosmetik məhsullar haqqında əsas anlayışları bilir. | 1. Kosmetik məhsulları təsnifatına uyğun ayırd edir.<br>2. Kosmetik məhsulların saxlama müddəti ilə bağlı məlumatlıdır.<br>3. Kosmetik vasitələrdə istifadə olunan kimyəvi maddələri ayırd edir.<br>4. Kosmetik vasitələrin əks təsirlərini izah edir. | **4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-7** |
| | Dəri qulluğunda istifadə olunan kosmetik məhsulların xüsusiyyətlərini bilir və istifadə etməyi bacarır. | 1. Dəridə qulluq üçün istifadə olunan kosmetik məhsulları təyinatına görə ayırd edir.<br>2. Dəriyə tətbiq olunan maska növlərini sadalayır.<br>3. Dərini nəmləndirən vasitələri müəyyən edir.<br>4. Dəridə liftinq effekti yaradan kosmetik məhsulları müəyyən edir.<br>5. Özəl dəri qulluğu vasitələrini tətbiq edir. | | |
| | Üz makiyajı zamanı istifadə olunan əsas kosmetik vasitələr haqqında bilir və tətbiq etməyi bacarır. | 1. Kosmetik vasitə tətbiq edilməzdən öncə nəzərə alınmalı məqamları sadalayır.<br>2. Tonal kremləri növ və rənglərinə görə ayırır.<br>3. Kirşanı növ və rənglərinə uyğun fərqləndirir.<br>4. Ənlikləri növ və rənglərinə görə ayırd edir.<br>5. Göz makiyajı üçün istifadə olunan kosmetik vasitələri bilir.<br>6. Dodaq makiyajında istifadə olunan kosmetik vasitələri sadalayır. | | |

| | | | | |
|---|---|---|---|---|
| | Bədən qulluğunda istifadə olunan kosmetik məhsulları bilir və təyinatına görə istifadə etməyi bacarır. | 1. Sabunları növlərinə görə ayırır.<br>2. Hamamda istifadə olunan kosmetik məhsulların xüsusiyyətlərini izah edir.<br>3. Bədən üçün istifadə olunan ətirləri təyinatına görə fərqləndirir.<br>4. Bədən üçün kremləri təsnif edir.<br>5. Günəşdən qoruyan məhsulları müəyyən edir. | | |
| | Saça qulluq və forma verən zaman istifadə olunan kosmetik vasitələr haqqında bilir. | 1. Saça qulluq üçün istifadə olunan kosmetik vasitələri sadalayır.<br>2. Saçın görüntüsünü gözəlləşdirən kosmetik vasitələri müəyyən edir.<br>3. Saça qalıcı forma verən kosmetik məhsullar haqqında məlumatlıdır. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə dəri ilə bağlı əsas anlayışları biləcək və dərinin vizual diaqnostik təhlilini aparmağı, dəriyə növünə görə qulluq etməyi, dərini müxtəlif kosmetik məhsul və cihazlarla təmizləməyi və dəridə müxtəlif kosmetik prosedurlar tətbiq etməyi bacaracaqdır. | | | | |
| **SGX-İM-B08**<br><br>Dəriyə qulluq tədbirləri | Dərinin quruluşu və təbəqələrini bilir və dərinin sağlamlığına təsir edən amilləri müəyyən etməyi bacarır. | 1. Dərinin quruluşunu izah edir.<br>2. Dərinin funksiyalarını müəyyən edir.<br>3. Dəridə yerləşən piy və tər vəzilərinin xüsusiyyətlərini izah edir.<br>4. Dəriyə təsir edən daxili amilləri izah edir.<br>5. Dəriyə təsir edən xarici amilləri sadalayır.<br>6. Dəri sağlamlığı üçün faydalı olan başlıca vasitələri müəyyənləşdirir. | **4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-7** |
| | Dərinin vizual diaqnostik təhlilini aparmağı bacarır | 1. Dəridə gedən ümumi patoloji prosesləri izah edir.<br>2. Dəridə virus xəstəliklərini müəyyən edir.<br>3. Dəridə bakterial xəstəlikləri müəyyən edir.<br>4. Dəridə göbələk xəstəliklərini aşkar edir.<br>5. Dəridə şüa enerjisindən əmələ gələn təsirləri müəyyən edir.<br>6. Xəstəliklərə qarşı profilaktik tədbirləri izah edir. | | |
| | Dərinin növlərinə görə qulluq üsullarını tətbiq etməyi bacarır. | 1. Normal dəriyə qulluq üsullarını müəyyən edir.<br>2. Yağlı və akneli dəriyə qulluq üsullarını tətbiq edir.<br>3. Quru dəriyə uyğun qulluq üsullarını icra edir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | | 4. Kombinə olunmuş dəriyə qulluq edir.<br>5. Həssas dəriyə qulluq üsullarını tətbiq edir.<br>6. Yaşlı dərilərə qulluq prosedurunu həyata keçirir. | | |
| | Üz dərisini müxtəlif kosmetik məhsul və cihazlardan istifadə edərək təmizləməyi bacarır. | 1. Üz dərisinin təmizlənməsi zamanı istifadə olunan kosmetik məhsulları ayırd edir.<br>2. Üz dərisinə qulluq zamanı xüsusi diqqət yetirməli olduğu məqamları təyin edir.<br>3. Dərinin kosmetik məhsullara allergik olub olmamasını yoxlayır.<br>4. Dərinin tipinə görə təmizlik prosedurunu müəyyən edir<br>5. Üz dərisini müxtəlif cihazlardan istifadə etməklə təmizləyir. | | |
| | Üzün bütün hissələrində müxtəlif kosmetik prosedurlar həyata keçirməyi bacarır. | 1. Dərinin vəziyyətinə və növünə görə kimyəvi peeling tətbiq edir.<br>2. Üz dərisində mezoterapiyanın kosmetik prosedurunu həyata keçirir.<br>3. Biorevitalizasiya prosedurunu həyata keçirir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə qadın, kişi və uşaq saçlarında müxtəlif alətlərlə fərqli kəsim modellərini tətbiq etməyi bacaracaqdır. | | | | |
| **SGX-İM-B09**<br><br>Saç kəsimi 2 | Qadın saçlarında müxtəlif kəsim modellərini tətbiq etməyi bacarır. | 1. Qadın saçlarında fərqli alətlərlə müxtəlif modellər tətbiq edir.<br>2. Üzün formasına uyğun fərqli modellər tətbiq edir.<br>3. Qadın saçlarında yaradıcı saç kəsimi modellərini tətbiq edir. | **4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-7** |
| | Kişi saçlarında müxtəlif növ kəsim modellərini tətbiq etməyi bacarır. | 1. Kişi saçlarında fərqli alətlərlə müxtəlif modellər tətbiq edir.<br>2. Üzün formasına uyğun fərqli modellər tətbiq edir.<br>3. Fərqli modellərdə saqqal və bığa forma verir. | | |
| | Uşaq saçlarında müxtəlif kəsim modellərini tətbiq etməyi bacarır | 1. Uşaqları saç kəsiminə hazırlayır.<br>2. Fərqli uşaq saç kəsimi modellərini sadalayır.<br>3. Üz forması, dəb və müştərinin istəyini nəzərə alaraq müxtəlif saç kəsimlərini tətbiq edir.<br>4. Saçlarda müxtəlif alət və vasitələrlə şəkillər çəkir (Hair Tattoo). | | |

<table>
<tr><td colspan="5">Modulun ümumi məqsədi: Bu modulu tamamladıqdan sonra tələbə manikur və pedikur etməyi və əl-ayaq və dırnaqlara xüsusi qulluq tətbiq etməyi bacaracaqdır.</td></tr>
<tr><td rowspan="3">SGX-İM-B10<br><br>Əl-ayaq və dırnaqlara qulluq 2</td><td>Manikur və pedikürün əhəmiyyətini bilir və istifadə olunan alətləri təyinatına görə ayırd etməyi bacarır.</td><td>1. Manikur və pedikurun əl-ayaq və dırnaqların sağlamlığı üçün əhəmiyyətini izah edir.<br>2. Manikur zamanı istifadə olunan alət və avadanlqları tətbiq edir.<br>3. Pedikur zamanı istifadə olunan alət və avadanlıqları müəyyən edir.</td><td rowspan="3">4</td><td rowspan="3">PK-1<br>PK-2<br>PK-3<br>PK-4<br>PK-5<br>PK-7</td></tr>
<tr><td>Manikur etməyi bacarır.</td><td>1. Müştərinin dırnaqlarını manikur üçün hazır vəziyyətə gətirir.<br>2. Dırnaq ətlərini müvafiq alət və avadanlıqlarla təmizləyir.<br>3. Müştərinin istəyinə uyğun dırnaqları formaya salır.<br>4. Manikur prosesinin sonunda əl və dırnaqları xüsusi vasitələrlə masaj edir.</td></tr>
<tr><td>Pedikür etməyi bacarır.</td><td>1. Müştərinin dırnaqlarını pedikur üçün hazır vəziyyətə gətirir.<br>2. Dırnaqda batıq və sərtləşmələri xüsusi texnika ilə bərpa edir.<br>3. Müştərinin istəyinə uyğun dırnaqları formaya salır.<br>4. Pedikur prosesinin sonunda ayaq və dırnaqları xüsusi vasitələrlə masaj edir.</td></tr>
<tr><td colspan="5">Modulun ümumi məqsədi: Bu modulu tamamladıqdan sonra tələbə saç rənglərinin nəzəriyyəsini, müxtəlif saç boya qrupları haqqında biləcək, boya qruplarını tətbiq etməyi və müştərinin ilkin təhlilini aparmağı bacaracaqdır.</td></tr>
<tr><td rowspan="2">SGX-İM-B11<br><br>Saç rənglənməsi I</td><td>Saç rənglərinin nəzəriyyəsini və xarakteristikasını bilir.</td><td>1. Rəng nəzəriyyəsi haqqında məlumat verir.<br>2. Rənglərin xarakteristikasını izah edir.<br>3. Rəng dairəsininin iş prinsipini izah edir.</td><td rowspan="2">4</td><td rowspan="2">PK-1<br>PK-2<br>PK-3<br>PK-4<br>PK-5<br>PK-7</td></tr>
<tr><td>Müxtəlif qrup saç boyaları haqqında bilir və tətbiq etməyi bacarır.</td><td>1. Saç boyalarının yaranma tarixi haqqında danışır.<br>2. Təbii saç rənglərinin və çalarlarının kodlarını sadalayır.<br>3. Saç boyamasında istifadə olunan korrektorları (mikstonlar) müəyyən edir.<br>4. Oksidant (oksigent) vasitəsinin iş prinsipini müəyyən edir.<br>5. Saç açıcı vasitələrini iş prinsipini izah edir.</td></tr>
</table>

| | | | | |
|---|---|---|---|---|
| | Saç rənglənməsində istifadə olunan alətləri və diqqət edilməli olan məqamları bilir. | 1. Saç rənglənməsində istifadə olunan alət və avadanlıqları müəyyən edir.<br>2. Müştəri ilə boyama prosesindən öncə ilkin konsultasiya aparır.<br>3. Saçların boyanması zamanı təhlükəsizlik qaydalarına riayət edir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə müvafiq üsullardan istifadə etməklə qaşa forma verməyi, kirpik və qaşları rəngləməyi və kirpiklərə müxtəlif laminasiya prosedurlarını və qaynaq tətbiq etməyi bacaracaqdır. | | | | |
| **SGX-İM-B12**<br><br>Kirpik və qaşa forma vermə | Müvafiq üsullardan istifadə etməklə qaşa forma vermyi bacarır. | 1. Müxtəlif qaş formalarının xüsusiyyətlərini sadalayır.<br>2. Qaş formalarını üzün quruluşuna uyğun müəyyən edir.<br>3. Qaşa müvafiq alət və vasitələrdən istifadə etməklə müxtəlif üsullarla forma verir. | **3** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-7** |
| | Kirpik və qaşları rəngləməyi bacarır. | 1. Kiprik və qaş rənglənməsində istifadə olunan alətləri izah edir.<br>2. Kirpik və qaşların rənglənməsində istifadə olunan kosmetik məhsulların xüsusiyyətlərini fərqləndirir.<br>3. Kirpik və qaşların rənglənmə üsullarını tətbiq edir. | | |
| | Kirpiklərə forma verməyi bacarır. | 1. Kirpiklərin quruluşunu izah edir.<br>2. Kirpiklərə müxtəlif effektlərdən istifadə etməklə taxma kirpik tətbiq edir.<br>3. Kirpiklərə laminasiya prosedurunu tətbiq edir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə mikropiqmentasiya və permanent makiyajın silinməsi üsulları ilə bağlı əsas anlayışları biləcək, qaş, dodaq və göz nahiyələrində permanent makiyaj tətbiq etməyi bacaracaqdır. | | | | |
| **SGX-İM-B13**<br><br>Permanent (qalıcı) makiyaj | Mikropiqmentasiya ilə bağlı əsas anlayışları bilir. | 1. Qalıcı makiyajın mahiyyətini izah edir.<br>2. Qalıcı makiyajın tətbiq sahələrinə uyğun istifadə olunan alət və kosmetik vasitələri sadalayır.<br>3. Qalıcı makiyajın növlərini təhlil edir. | **4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6** |

| | | | | |
|---|---|---|---|---|
| | Permanent (qalıcı) makiyajı qaş nahiyəsinə tətbiq etməyi bacarır. | 1. Müştərini proses öncəsi hazırlayır.<br>2. Müştərinin istəyinə uyğun qaşlara pudra effekti tətbiq edir.<br>3. Müştərinin istəyinə uyğun qaşlara tük effekti tətbiq edir.<br>4. Müştərinin istəyinə uyğun qaşlara ten teffekti tətbiq edir.<br>5. Microshading ilə Microblading arasındakı fərqləri müəyyən edir. | | **PK-7** |
| | Permanent (qalıcı) makiyajı dodaq nahiyəsinə tətbiq etməyi bacarır. | 1. Müştərini prosesə hazırlayır.<br>2. Dodaqların formasını yaxşılaşdırmaq üçün qalıcı kontur tətbiq edir.<br>3. Dodaq nahiyəsinə qalıcı boya (dodaq boyası və akvarel effekti) tətbiq edir. | | |
| | Permanent (qalıcı) makiyajı göz nahiyəsinə tətbiq etməyi bacarır. | 1. Müştərini proses öncəsi hazırlayır.<br>2. Göz nahiyəsənə kirpik dibi layner effekti tətbiq edir.<br>3. Göz nahiyəsinə klassik layner effekti tətbiq edir.<br>4. Göz nahiyəsinə ten effekti tətbiq edir. | | |
| | Permanent (qalıcı) makiyajın silinməsi üsullarını bilir. | 1. Qaş nahiyəsinə tətbiq olunan permanent makiyajın silinməsi qaydasını izah edir.<br>2. Dodaq nahiyəsinə tətbiq olunan permanent makiyajın silinməsi yollarını sadalayır.<br>3. Göz nahiyəsinə tətbiq olunan permanent makiyajın silinməsi qaydalarını şərh edir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə dırnalqları müxtəlif üsullarla boyamağı, dırnağa qaynaq etməyi və dırnaq üzərində dizayn işləri aparmağı bacaracaqdır. | | | | |
| **SGX-İM-B14**<br>Dırnaq bəzəmə və qaynağı | Dırnaq boyaması zamanı istifadə olunan alət və vasitələri bilir və dırnağı müvafiq üsullarla boyamağı bacarır. | 1. Dırnaq boyalarını rəng çalarlarına görə ayırd edir.<br>2. Dırnaq boyayarkən istifadə olunan alət və avadanlıqları müəyyən edir.<br>3. Dırnağı sadə üsulla müştərinin rəng seçiminə uyğun boyayır.<br>4. Dırnağı Shellak üsulundan istifadə etməklə boyayır.<br>5. Dırnağı Gellak üsulundan istifadə etməklə boyayır.<br>6. Bütün növ boyaları müştərinin istəyinə uyğun silir. | **4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-7** |

| | | | | |
|---|---|---|---|---|
| | | | | |
| | Dırnağa müxtəlif növ qaynaq etməyi və dırnaqların bərkidilməsi üçün laminasiya tətbiq etməyi bacarır. | 1. Müştərinin dırnaqlarına qaynaq tətbiqi üçün hazır vəziyyətə gətirir.<br>2. Qaynaq zamanı istifadə olunan alətləri və vasitələri müəyyən edir.<br>3. Müştəriyə<br>4. Müştəriyə gel ilə qaynaq edir.<br>5. Müştəriyə akril ilə qaynaq edir.<br>6. Müştəriyə tipsi qaynaq tətbiq edir.<br>7. Bütün növ qaynaqları müştərinin istəyinə uyğun sökür.<br>8. Müştəriyə istəyi üzrə İBX Repair laminasiyası tətbiq edir. | | |
| | Dırnaqları müxtəlif üsullarla bəzəməyi bacarır. | 1. Müştərinin dırnaqlarını bəzəmək üçün hazır vəziyyətə gətirir.<br>2. Dırnağın üzərində rəsm çəkərək bəzəyir.<br>3. Dırnaqları müxtəlif növ stikerlərlə bəzəyir.<br>4. Dırnaqları müxtəlif bəzəklərlə bəzəyir.<br>5. Taxma dırnaq ilə dırnaq bəzəklərini tətbiq edir.<br>6. Tətbiq edilən bütün növ bəzəkləri silir. | | |

**Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə natural və boyanmış saçlarla işləməyi, müxtəlif boyanma texnikalarını tətbiq etməyi və yaradıcı boyanma qaydalarından istifadə etməyi bacaracaqdır.

| | | | | |
|---|---|---|---|---|
| **SGX-İM-B15**<br><br>Saç rənglənməsi II | Natural və boyanmış saçlarla işləməyi bacarır | 1. Natural saçları rəngləyir.<br>2. Ağ saçlarla işləmə texnikasını icra edir.<br>3. Natural saçların açılması qaydalarını tətbiq edir.<br>4. Boyanmış saçları yenidən boyayır.<br>5. Saçlara dib boyası tətbiq edir. | **4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-7** |
| | Müxtəlif boyama texnikaları tətbiq etməyi bacarır. | 1. Saçları ombre üsulu ilə rəngləyir<br>2. Saçları balyaj üsulu ilə rəngləyir.<br>3. Saçları refle üsulu ilə rəngləyir.<br>4. Saçları şatuş üsulu ilə boyayır.<br>5. Saçları Air touch texnikası ilə boyayır.<br>6. Kombin olunmuş boyama texnikaları tətbiq edir. | | |
| | Yaradıcı (kreativ) boyama texnikaları tətbiq etməyi bacarır. | 1. Futuaj (trafaret boyama) texnikasını tətbiq edir.<br>2. Seqment boyama texnikasını (müəyyən hissə) icra edir.<br>3. Facelight (üzün korreksiyası) texnikasını həyata keçirir.<br>4. Babylight texnikası ilə saçları boyayır.<br>5. Tərs ombre üsulu ilə saçları rəngləyir.<br>6. Göy qurşağı (neon) texnikasını tətbiq etməklə saçları rəngləyir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə masajla bağlı əsas anlayışları biləcək, klassik və üz masajı texnikalarını tətbiq etməyi bacaracaqdır. | | | | |
| **SGX-İM-B16**<br><br>Masaj | Masajın əsas anlayışlarını və insan həyatı üçün əhəmiyyətini bilir. | 1. Masajın tarixi inkişaf mərhələlərini izah edir.<br>2. Masajın təsnifatından məlumatı var.<br>3. Masajın insan sağlamlığına təsirlərini sadalayır. | **3** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5** |

| | | | | |
|---|---|---|---|---|
| | Klassik masajın əsas anlayışlarını bilir və bədənin müxtəlif hissələrində klassik masaj hərəkətlərini icra etməyi bacarır. | 1. Klassik masajla bağlı əsas anlayışları təsvir edir.<br>2. Masajın tətbiqi və əks göstərişlərini izah edir.<br>3. Sığallama (Effloraj) masaj növünün hərəkətlərini icra edir.<br>4. Ovuşdurma (Petrisaj) masaj növünün hərəkətlərini icra edir.<br>5. Ovxalama (Friksiya) masaj növünün hərəkətlərini tətbiq edir.<br>6. Vibrasiya masaj növünün hərəkətlərini icra edir.<br>7. Ritmik vurma (Tapotment) masaj növünü icra edir. | | **PK-7** |
| | Fərqli üz masajı hərəkətlərini icra etməyi bacarır. | 1. Üz və kəllə sümüklərinin quruluşunu izah edir.<br>2. Üz əzələlərinin xüsusiyyətlərini sadalayır.<br>3. Üzdə sinir sisteminin yerləşdiyi nöqtələri müəyyən edir.<br>4. Üz nahiyəsində əks göstərişləri nəzərə almaqla fərqli masaj hərəkətlərini icra edir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə müştəri xidməti ilə bağlı əsas anlayışları, ünsiyyətin yollarını biləcək, qarşılıqlı əlaqə qurmağı və göstərilən xidmətin keyfiyyət səviyyəsini təhlil etməyi bacaracaqdır. | | | | |
| **SGX-İM-B17**<br><br>Müştəri ünsiyyəti və xidmət | Müştəri xidməti ilə bağlı əsas anlayışları bilir. | 1. Müştəri xidmətinin nə olduğunu izah edir.<br>2. Mükəmməl müştəri xidməti üçün lazım olan şəxsi keyfiyyətləri müəyyən edir.<br>3. Müştəri xidmətinin müəssisə üçün əhəmiyyətini müəyyən edir. | **3** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7** |
| | Müştərilərlə ünsiyyətin yollarını bilir və qarşılıqlı əlaqə qurmağı bacarır. | 1. Müştərilərin bədən dilini təhlil edir.<br>2. Müştərilərlə effektiv ünsiyyət qurur.<br>3. Şikayətləri fürsətlərə çevirməyin yollarını izah edir.<br>4. Müştəriləri ruhlandırmaq üçün tələb olunan keyfiyyətləri təhlil edir.<br>5. Müştərilərlə qarşılıqlı münasibətlərin idarəolunması sistemi (CRM) haqqında təsəvvürə malikdir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | Müştərilərə göstərilən xidmətin keyfiyyət səviyyəsini təhlil etməyi bacarır. | 1. Müştəri məmnuniyyəti üzrə standartları müəyyən edir.<br>2. Müştəri məmnuniyyətini müxtəlif göstəricilər üzrə ölçür.<br>3. “Gizli müştəri” proqramlarının üstünlüklərini təhlil edir.<br>4. Komanda üzvlərinin mükafatlandırılması üçün meyarları müəyyən edir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə kompüterdə saç və makiyaj dizaynı proqramları ilə bağlı əsas anlayışları biləcək, kompüterdə fərqli göz, üz, dodaq makiyajı etməyi və müxtəlif saç düzümləri və uyğun olaraq saç rənglərini dizayn etməyi, aksessuarları proqram vasitəsilə uyğunlaşdırmağı bacaracaqdır. | | | | |
| **SGX-İM-B18**<br><br>Kompüterdə saç və makiyaj dizaynı | Saç və Makiyaj Paketi Proqramı haqqında əsas anlayışları bilir. | 1. Kompüterdə edilən müxtəlif saç və makiyaj dizaynı proqramlarını tanıyır.<br>2. Seçilən proqramın istifadə panelini izah edir.<br>3. Proqramdan sərbəst istifadə edərək müştəri profilini açır. | **5** | **PK-1**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7** |
| | Göz, üz və dodaq formalarına görə makiyaj dizaynı etməyi bacarır. | 1. Müştərinin istəyinə uyğun göz makiyajını dizayn edir.<br>2. Müştərinin istəyinə uyğun üz makiyajını dizayn edir.<br>3. Müştərinin istəyinə uyğun dodaq makiyajını dizayn edir. | | |
| | Müxtəlif növ saç düzümlərini və saç rənglərini və ona uyğun aksessuarlar dizayn etməyi bacarır. | 1. Qadın saçlarında fərqli saç düzümlərini dizayn edir.<br>2. Kişi saçlarında fərqli saç düzümlərini dizayn edir.<br>3. Uşaq saçlarında fərqli saç düzümlərini dizayn edir.<br>4. Müxtəlif saç rənglərini dizayn edir.<br>5. Saç və makiyaja uyğun aksessuarlar dizayn edir. | | |

| | | | | |
|---|---|---|---|---|
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə saç və baş dərisi ilə bağlı əsas anlayışları, saç və baş dərisində yaranan müxtəlif xəstəliklər haqqında ilkin məlumatları və onların müalicəsi üsullarını biləcək və müxtəlif növ saç xəstəliklərinin vizual diaqnostikasını həyata keçirməyi bacaracaqdır. | | | | |
| **SGX-İM-B19**<br><br>Saç və dəri xəstəlikləri | Baş dərisi və insan saçı ilə bağlı əsas anlayışları bilir. | 1. Baş dərisinin quruluş və xüsusiyyətlərini sadalayır.<br>2. İnsan saçının xarakteristikasını izah edir.<br>3. Sağlam saç və baş dərisinin xüsusiyyətlərini sadalayır. | **3** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-7** |
| | Müxtəlif növ saç xəstəliklərini bilir və vizual diaqnostikasını həyata keçirməyi bacarır. | 1. Erkən saç ağarması ilə bağlı əsas anlayışları izah edir.<br>2. Saç anomaliyaları (saçqıran) barədə məlumat verir.<br>3. Kəpəklənmənin yaranma səbəblərini sadalayır.<br>4. Saç tökülməsi ilə bağlı ümumi məlumata malikdir. | | |
| | Saç və dəridə mikroorqanizmlərin törətdiyi yoxlucu xəstəlikləri ayırd etməyi bacarır | 1. Göbələyin saç və baş dərisində əmələ gətirdiyi xəstəlikləri vizual olaraq müəyyən edir.<br>2. Bakteriyaların saç və baş dərisində yaratdığı xəstəlikləri ayırd edir.<br>3. Mikroorqanizmlərin saç və baş dərisində törətdiyi xəstəliklərə qarşı profilaktik tədbir planını izah edir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə tükün əsas xüsusiyyətlərini, anatomik quruluşunu biləcək və müxtəlif üsullarla depilyasiya və depilyasiya etməyi bacaracaqdır. | | | | |
| **SGX-İM-B20**<br><br>Depilyasiya və epilyasiya | Tükün anatomik quruluşunu və xüsusiyyətlərini bilir və tipinə görə siniflәndirməyi bacarır | 1. Tükün anatomik quruluşunu izah edir.<br>2. Fərqli növ tük köklərini təhlil edir.<br>3. İnsan tükünün böyümə fazalarını sadalayır.<br>4. Tüklənmənin səbəblərini müəyyən edir. | **4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-7** |

| | | | | |
|---|---|---|---|---|
| | Müxtəlif üsullarla depilasiya etməyi bacarır. | 1. Depilyasya və epilyasiya arasındakı fərqləri izah edir.<br>2. Depilyasiya üçün müştərinin ilkin qiymətləndirməsini həyata keçirir.<br>3. Depilyasiya üçün müvafiq vasitələri prosedura hazırlayır.<br>4. Bədən nahiyəsinə enzim çəkərək düzgün qaydada istilik verir.<br>5. Bədən nahiyəsinə müvafiq qaydada krem-depilyator və ya sprey tətbiq edərək arzuolunmaz tükləri xaric edir.<br>6. Bədən nahiyəsinə müvafiq qaydada mum tətbiq edərək arzuolunmaz tükləri xaric edir. | | |
| | Foto epilyasiya etməyi bacarır. | 1. Müştərinin müraciət etdiyi bədən nahiyəsi üzrə ilkin qiymətləndirmə və təhlilini aparır.<br>2. Foto epilyasiya üçün otağı və müvafiq alət və avadanlığı hazır vəziyyətə gətirir.<br>3. Foto epilyasiya prosedurunu həyata keçirir. | | |
| | İynəli (elektroliz) epilyasiya etməyi bacarır. | 1. Müştərinin müraciət etdiyi bədən nahiyəsi üzrə ilkin qiymətləndirmə və təhlilini aparır.<br>2. Elektroliz epilyasiya üçün otağı və müvafiq alət və avadanlığı hazır vəziyyətə gətirir.<br>3. Elektroliz epilyasiya prosedurunu həyata keçirir. | | |
| | Lazer epilyasiya etməyi bacarır. | 1. Müştərinin müraciət etdiyi bədən nahiyəsi üzrə ilkin qiymətləndirmə və təhlilini aparır.<br>2. Lazer epilyasiya üçün otağı və müvafiq alət və avadanlığı hazır vəziyyətə gətirir.<br>3. Alexandrit lazer epilyasiya prosedurunu həyata keçirir.<br>4. Diod lazer epilyasiya prosedurunu həyata keçirir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə bazar mühitində araşdırma aparmağı, marketinq planı hazırlamağı və məhsulu bazara düzgün formada çıxarmağı bacaracaqdır. | | | | |
| **SGX-İM-B21**<br><br>Satış və marketinq fəaliyyəti | Bazar araşdırması ilə bağlı əsas anlayışları bilir və bazar mühitini təhlil etməyi bacarır. | 1. Bazar mühitinin araşdırılması üsullarınıı izah edir.<br>2. Məhsula (xidmətə) uyğun hədəf kütləsini müəyyən edir.<br>3. Məhsulun (xidmətin) bazarda rəqabətliliyini müəyyən edir.<br>4. İstehlakçı davranışlarını təhlil edir. | **4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7** |

<table>
<tr><td></td><td>Bazar araşdırmasının nəticələri əsasında marketinq planı hazırlamağı bacarır.</td><td>1. Bazarda mövcud tələbata uyğun məhsul (xidmət) portfoliosunu hazırlayır.<br>2. Marketinq planın hazırlanması ilə bağlı əsas elementləri təsvir edir.<br>3. Marketinq və satış üzrə prioritet istiqamətləri müəyyən etməklə fəaliyyət planı hazırlayır.<br>4. Fəaliyyət planını həyata keçirmək üçün müəssisənin mövcud resurslarını təhlil edir.</td><td></td><td></td></tr>
<tr><td></td><td>Məhsulu (xidməti) bazara təqdim etməyi bacarır.</td><td>1. Bazara uyğun qiymət strategiyasını müəyyən edir.<br>2. Məhsulun (xidmətin) təqdimatı üçün mövcud marketinq sistemlərini araşdırır.<br>3. Marketinq və satış fəaliyyətlərini koordinasiya edir.</td><td></td><td></td></tr>
<tr><td colspan="5">Modulun ümumi məqsədi: Bu modulu tamamladıqdan sonra tələbə antropometriya haqqında ilkin anlayışları, piylənməni, sellüliti və dəri çatlarını yaradan səbəbləri və müalicə üsullarını, bədənin quruluşunun müxtəlif vasitələrlə korreksiyası üsullarını biləcək və bədəni təthlil etməyi bacaracaqdır.</td></tr>
<tr><td>SGX-İM-B22<br><br>Bədənə qulluq tədbirləri</td><td>Antropometriya ölçülərini bilir və bədəni analiz etməyi bacarır</td><td>1. Antropometriyanın nə olduğunu izah edir.<br>2. Bədən ölçülərinin tətbiq sahələrini açıqlayır.<br>3. Bədən ölçülərini müəyyən edərək bədənin təhlilini aparır.</td><td>4</td><td>PK-1<br>PK-2<br>PK-3<br>PK-4<br>PK-5<br>PK-7</td></tr>
<tr><td></td><td>Piylənməni yaradan səbəbləri və uyğun müalicə üsullarını bilir.</td><td>1. Piylənmə insan orqanizminə təsirlərini izah edir.<br>2. Piylənmənin səbəblərini açıqlayır.<br>3. Piylənmə zamanı düzgün qidalanma və idmanın əhəmiyyətini şərh edir.<br>4. Piylənməyə qarşı müalicə üsullarını izah edir.</td><td></td><td></td></tr>
<tr><td></td><td>Selüliti yaradan səbəbləri bilir və preparatlarla müalicə üsullarını müəyyən etməyi bacarır.</td><td>1. Sellülit haqqında ümumi məlumata malikdir.<br>2. Sellülitin yaranma səbəblərini izah edir.<br>3. Sellülitin inkişaf mərhələlərini sadalayır.<br>4. Sellülitin xarici təsirlii preparatlarla (dəniz iqlimi, su, yosun, qum, palçıq) müalicə üsullarını inkişaf mərhələsinə uyğun müəyyən edir.</td><td></td><td></td></tr>
</table>

| | | | | |
|---|---|---|---|---|
| | Dəridə yaranan çatların səbəbləri bilir və müalicə üsullarını müəyyən etməyi bacarır. | 1. Dəridə yaranan çatlar barədə ümumi məlumata malikdir.<br>2. Dəridə yaranan çatların səbəblərini izah edir.<br>3. Dəri çatlarının kosmetik vasitələrlə profilaktikasını həyata keçirir.<br>4. Dəri çatlarının müalicə üsullarını müəyyən edir. | | |
| | Bədən quruluşunun aparatlarla korreksiya üsullarını bilir. | 1. Limfodrenaj üsulunun tətbiqini izah edir.<br>2. Vakum masajı ilə bağlı əsas anlayışları sadalayır.<br>3. Endermologiya üsulunu şərh edir.<br>4. Mikrocərəyan və elektromiostimulasiyanın bədən formasına başlıca təsirlərini izah edir.<br>5. Ultrasəs müalicə üsullarını sadalayır.<br>6. Mezoterapiyanın tətbiq üsullarını izah edir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə idarəetmə, investisiya, biznesin təşkili, insan resurlarının idarəedilməsi və mühasibat uçotu barədə vacib məqamları biləcək, həmçinin bu sahələrdə əsas mexanizmlərdən istifadə etməyi bacaracaqdır. | | | | |
| **SGX-İM-B23**<br><br>Gözəllik və estetik xidmətlərin təşkili və idarəedilməsi | İdarəetmə anlayışı və idarəetmə prosesi haqqında bilir. | 1. İdarəçilik anlayışını izah edir.<br>2. İdarəetmənin obyekti, növləri və metodları haqqında məlumat verir.<br>3. İdarəçinin əsas vəzifəsini təsvir edir.<br>4. İdarəetmənin əsas funksiyalarını sadalayır. | **5** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7** |
| | İnvestisiyalar haqqında əsas anlayışları bilir. | 1. İnvesitisiyanın nə olduğunu izah edir.<br>2. İnvestisiya sahələrini müəyyən edir.<br>3. İnvestisiyanın biznes üçün əhəmiyyətini şərh edir.<br>4. İnvestisiya şirkətlərini tanıyır.<br>5. İnvestisiyanı cəlb etmənin yollarını sadalayır. | | |

| | | | | |
|---|---|---|---|---|
| | Biznesin təşkili və idarə olunması ilə bağlı qanunvericiliyi bilir və biznes plan hazırlamağı bacarır. | 1. Bizneslə bağlı əsas anlayışları sadalayır.<br>2. Sahə üzrə biznesin təşkili və idarə olunması ilə bağlı qanunvericiliyi izah edir.<br>3. Biznes planın hazırlanmasının əhəmiyyətini izah edir.<br>4. Biznes planın xülasəsini hazırlayır.<br>5. Biznesi təsvirini planda göstərir.<br>6. Maliyyə planı biznes plana əlavə edir. | | |
| | İnsan resurslarının idarə edilməsində əsas anlayışları bilir. | 1. Əmək qanunvericiliyi ilə bağlı məlumata malikdir.<br>2. İnsan resurslarının idarə edilməsində başlıca məqsədi izah edir.<br>3. Heyətin idarə edilməsinin əsas konsepsiyaları və funksiyalarını sadalayır. | | |
| | Mühasibat uçotu ilə bağlı əsas anlayışları bilir. | 1. Mühasibat uçotu anlayışını izah edir.<br>2. Mühasibat uçotunun məqsədini təsvir edir.<br>3. Mühasibat uçotunun funksiyalarını sadalayır.<br>4. Mühasibat uçotunun prinsiplərini izah edir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə saç və moda üslubları, rəng nəzəriyyəsi haqqında əsas anlayışları biləcək, şəxsi müxtəlif meyarlara uyğun təhlil edərək fərdi imic yaratmağı, şəxs üçün kapsul qarderob yaratmağı və ehtiyaclarına uyğun alış-veriş etməyi bacaracaqdır. | | | | |
| **SGX-İM-B24**<br><br>Fərdi imic və stilin yaradılması | Saç və moda üslublarının tarixi inkişaf mərhələlərini bilir və sahə üzrə tədqiqatları təhlil etməyi bacarır. | 1. Fərqli saç üslublarının inkişaf tarixini izah edir.<br>2. Modanın tarixi inkişaf mərhələlərini sadalayır.<br>3. Saç və moda terminalogiyasını izah edir.<br>4. Dəb üslublarını tanıyır.<br>5. Saç və moda üzrə tədqiqatları təhlil edir. | **4** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7** |
| | Rəng nəzəriyyəsini bilir və şəxsə uyğun rəng seçimləri etməyi bacarır. | 1. Rənglərlə bağlı əsas anlayışları izah edir.<br>2. Rəng növlərini ayırd edir.<br>3. Rəng uyğunluğunu müəyyən edir.<br>4. Rənglərin insan psixologiyasına təsirini təhlil edir.<br>5. Geyimlərdə rənglərin psixoloji təsirini izah edir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | | 6. Müştərinin saç, dəri və göz rənginə uyğun düzgün rənglərdən ibarət rəng paleti hazırlayır. | | |
| | Şəxsi müxtəlif meyarlara uyğun təhlil edərək fərdi imic və stil yaratmağı bacarır. | 1. Müştərinin ehtiyaclarını müəyyən edir.<br>2. Müştərinin bədən formalarını təhlil edərək uyğun geyim nümunələri təklif edir.<br>3. Müştərinin üz formasını təhlil edərək uyğun saç və makiyaj nümunələri tətbiq edir.<br>4. Müştəriyə uyğun ayaqqabı, çanta və aksessuar seçimi təqdim edir.<br>5. Müştəriyə korporativ imic təklifləri verir. | | |
| | Kapsul qarderob yaratmağı bacarır. | 1. Kapsul qarderob anlayışını izah edir.<br>2. Kapsul qarderobun yaranma tarixini şərh edir.<br>3. Kapsul qarderobun şəxs üçün üstünlüklərini sadalayır.<br>4. Mövsümlərə uyğun müxtəlif üslublarda kapsul qarderob nümunələri yaradır. | | |
| | Şəxsin ehtiyaclarına uyğun alış-veriş etməyi bacarır. | 1. Şəxsin qarderobuna uyğun ehtiyaclar siyahısı hazırlayır.<br>2. Ehtiyacların büdcəsini müəyyən edir.<br>3. Alış-verişi müvafiq strategiyalara uyğun həyata keçirir. | | |
| | | | | |
| **SGX-İMSB00** | **İxtisas peşə hazırlığı seçmə modulları bölümü**<br><br>Bu bölümə daxil olan modulların öyrənilməsi nəticəsində subbakalavr: | | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə qida qrupları, saç, dəri və dırnaq üçün lazım olan vitaminlər, yağlar, yağ turşuları və bitki antioksidantlari haqqında biləcək, şəxsin ideal çəkisini hesablamağı, çəkiyə uyğun kalori dəyərini müəyyən etmyi və müvafiq olaraq pəhriz menyusu hazırlamağı bacaracaqdır. | | | | |
| **SGX-İMSB01**<br><br>Qidalanma və dəri sağlamlığı | Qida və qida qruplarını bilir və qida qrupları ilə sağlamlıq arasındakı əlaqəni müəyyən etməyi bacarır. | 1. Qida qruplarını təsvir edir.<br>2. Qeyri-sağlam qidalanmanın insan sağlamlığına təsirini izah edir.<br>3. Sağlam qidalanma yollarını sadalayır. | **3** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-7** |

| | | | | |
|---|---|---|---|---|
| | Piylənmə, çəki nəzarəti və qidalanmada uyğunsuzluqları bilir və problemlərə qarşı tədbir almağı bacarır. | 1. Piylənmənin insan orqanizminə əks təsirlərini izah edir.<br>2. Bədən kütləsinin göstəricisi haqqında məlumatlıdır.<br>3. Detox haqqında məlumatlıdır.<br>4. Pəhriz menyusu hazırlayır. | | |
| | Dəri, dırnaq və saçın düzgün qidalanması üçün lazım olan qida maddələri və dəyərlərini bilir. | 1. Dəri, dırnaq və saç sağlamlığı üçün lazım olan vitaminləri tanıyır.<br>2. Dəri, dırnaq və saç sağlamlığı üçün qəbul edilməli olan qida maddələrini təsvir edir.<br>3. Sağlam dəri, dırnaq və saç üçün müxtəlif yağ və yağ turşularının xüsusiyyətlərini sadalayır.<br>4. Sağlam dəri, dırnaq və saç üçün bitki antioksidantlarını müəyyən edir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə müxtəlif kosmetik məhsulların tərkibini, onların hazırlanma və qablaşdırma qaydasını biləcək, kosmetik məhsullar üzərində aparılan testləri təhlil etməyi, müəyyən kosmetik məhsulları hazırlamağı və qablaşdırma xüsusiyyətlərini təhlil etməyi bacaracaqdır. | | | | |
| **SGX-İMSB02**<br>Kosmetik məhsulların kimyası | Müxtəlif kosmetik məhsulların tərkibini bilir və onlar üzərində aparılan testləri təhlil etməyi bacarır. | 1. Kosmetik məhsullarda müxtəlif növ qarışıqları müəyyən edir.<br>2. Kosmetik məhsullarda istifadə olunan xam maddələri bilir.<br>3. Kosmetik məhsulların mikrobioloji xüsusiyyətlərini fərqləndirir.<br>4. Kosmetik vasitələr üzərində aparılan testləri təhlil edir.<br>5. Kosmetik məhsulların əks reaksiyalarını müəyyən edir. | **3** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-7** |

| | | | | |
|---|---|---|---|---|
| | Müxtəlif növ kosmetik məhsulların hazırlanması qaydalarını bilir və tətbiq etməyi bacarır. | 1. Şampun hazlrlama qaydasını izah edir.<br>2. Saç kremi hazırlama qaydasını izah edir.<br>3. Üz və əl kremi hazırlama qaydasını təsvir edir.<br>4. Odekolon hazırlama qaydasını şərh edir.<br>5. Duş qəbulu zamanı istifadə olunan kosmetik vasitələri hazırlayır.<br>6. Dezinfeksiya vasitələrinin hazırlayır. | | |
| | Kosmetik məhsullarda qablaşdırmanın əhəmiyyətini bilir və etibarlılıq və dayanıqlıq xüsusiyyətlərini təhlil etməyi bacarır. | 1. Müxtəlif növ kosmetik məhsulların qablaşdırılma üsullarını sadalayır.<br>2. Kosmetik məhsulların qablaşdırılmasında istifadə olunan materialları ayırd edir.<br>3. Qablaşdırmanın etibarlılıq və dayanıqlıq xüsusiyyətlərini təhlil edir. | | |
| | | 4. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə saqqalın formaya salınması texnikalarını biləcək uyğun olaraq üz və saqqal qırxmağı, müxtəlif formaları verməyi və dəriyə qulluq etməyi bacaracaqdır. | | | | |
| **SGX-İMSB03**<br><br>Üz və saqqal qırxma | Saqqalın formaya salınması texnikalarını bilir və müxtəlif formalar verməyi bacarır. | 1. Saqqal və bığ formalarının tarixi inkişaf mərhələlərini izah edir.<br>2. Saqqal və ya bığın formaya salınması üçün istifadə olunan fərqli texnikaları izah edir.<br>3. Üz quruluşuna uyğun saqqal və ya bığa forma verir. | **3** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-7** |

| | | | | |
|---|---|---|---|---|
| | Müştərinin istəyinə uyğun olaraq üz və saqqal qırxmağı bacarır. | 1. Saqqalı qırxmaq üçün istifadə olunan alət və avadanlıqları izah edir.<br>2. Müştərinin üz dərisini vizual təhlil edir.<br>3. Saqqal və ya bığı müxtəlif vasitələrlə yumşaldır.<br>4. Saqqal və ya bığı sağlamlıq qaydalarına riayət etməklə qırxır. | | |
| | Saqqal qırxıldıqdan sonra dəriyə qulluq etməyi bacarır. | 1. Dəri qulluğunda istifadə olunan kosmetik vasitələri izah edir.<br>2. Normal dəri tipinə qulluq tətbiq edir.<br>3. Quru dəri tipinə qulluq edir.<br>4. Yağlı və akneli dəri tipinə qulluq edir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə teatr, fantastik və karnaval, film-televiziya-foto makiyajın əsaslarını biləcək və uyğun olaraq tətbiq etməyi bacaracaqdır. | | | | |
| **SGX-İMSB04**<br><br>Səhnə makiyajı | Teatr makiyajı ilə bağlı əsas anlayışları bilir və teatr makiyaj etməyi bacarır. | 1. Teatr makiyajının tarixini şərh edir.<br>2. Teatr makiyajının xüsusuiyyətlərini izah edir.<br>3. Teatr personajlarını təhlil edir.<br>4. Teatr makiyajında istifadə olunan kosmetik məhsulları təsvir edir.<br>5. Səhnə işığının yaratdığı effektləri izah edir.<br>6. Fərqli nümunələrdə teatr makiyajı edir. | **3** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7** |
| | Fantastik və karnaval makiyajının xüsusiyyətlərini bilir və tətbiq etməyi bacarır. | 1. Fantastik və karnaval makiyajının xüsusiyyətlərini izah edir.<br>2. Fantastik və ya karnaval personajını təhlil edir.<br>3. Fantastik və karnaval makiyajında istifadə olunan kosmetik məhsulları təsvir edir.<br>4. Fərqli nümunələrdə fantastik və karnaval makiyajı edir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | | | | |
| | Film-televiziya-foto makiyajının xüsusiyyətlərini bilir və makiyaj etməyi bacarır. | 1. Film-televiziya-foto makiyajın inkişaf tarixini şərh edir.<br>2. Film-televiziya-foto makiyajın xüsusuiyyətlərini izah edir.<br>3. Film-televiziya-foto makiyajı edilərkən diqqət edilməli məqamları təsvir edir.<br>4. Film-televiziya-foto makiyajını edir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə solarium ilə bağlı əsas anlayışları, solarium cihazlarının iş prinsipini biləcək və solarium prosedurunu həyata keçirməyi bacaracaqdır. | | | | |
| **SGX-İMSB05**<br><br>İşıq sistemləri ilə gözəllik xidmətləri (Solarium) | Solarium ilə bağlı əsas anlayışları bilir. | 1. Solariumun inkişaf tarixini təsvir edir.<br>2. Solariumun insan sağlamlığına müsbət təsirlərini izah edir.<br>3. Solariumun insan orqanizminə mənfi təsirlərini izah edir. | **4** | |
| | Solarium prosedurunda istifdə olunan kosmetik məhsulları və solarium cihazlarının iş prinsipini bilir. | 1. Solariumda istifadə olunan kosmetik məhsulları xüsusuiyyətlərinə görə ayırd edir.<br>2. Müxtəlif növ Vertikal solarium cihazlarının iş prinsipini izah edir.<br>3. Müxtəlif növ horizontal solarium cihazlarının iş prinsipini izah edir. | | |
| | Solarium prosedurunu həyata keçirməyi bacarır. | 1. Dərinin xüsusuiyyətlərinə uyğun fototipini müəyyən edir.<br>2. Dərinin fototipinə uyğun solarium seansı məsləhət verir.<br>3. Solarium zamanı nəzərə alınmalı əsas məqamları izah edir.<br>4. Horizontal və Vertikal solarium prosedurunu həyata keçirir. | | |
| **Modulun ümumi məqsədi:** Bu modulu tamamladıqdan sonra tələbə aromaterapiya və arommasaj haqqında əsas anlayışları, istifadə olunan yağlar, alət və avadanlıqları biləcək və aromaterapiya növlərini və aromamasajı həyata keçirməyi bacaracaqdır. | | | | |

| | | | | |
|---|---|---|---|---|
| **SGX-İMSB06**<br><br>Estetik xdimətlər üzrə aromaterapiya | Aromaterapiya haqqında əsas anlayışları bilir. | 1. Aromaterapiyanın nə olduğunu izah edir.<br>2. Aromaterapiyanın tarixi inkişaf mərhələlərini təsvir edir.<br>3. Aromaterapiyanın faydalarını sadalayır.<br>4. Aromaterapiyanın müalicəvi təsirini bilir.<br>5. Aromaterapiya ilə Feng-Shui arasındakı əlaqəni təhlil edir. | **4** | |
| | Aromaterapiya üsulların və istifadə olunan məhsulları, alət və avadanlıqları bilir və tətbiq etməyi bacarır. | 1. Müxtəlif növ bitki mənşəli yağları təyinatına görə seçir.<br>2. Aromaterapiya üsullarını izah edir.<br>3. Aromaterapiyada istifadə olunan alət və avadalıqları sadalayır. | | |
| | Aromaterapiya masajını tətbiq etməyi bacarır. | 1. Aromaterapiya masajının göstəriş və əks göstərişlərini sadalayır.<br>2. Aromaterapiya masajının bədənin müxtəlif hissələrinə təsirini izah edir.<br>3. Təhlükəsizlik qaydalarına riayət etməklə müxtəlif klassik masaj növlərini tətbiq edir. | | |
| **SGX-İTB00** | **Təcrübələr**<br>Bu bölümə aid olanların öyrənilməsi nəticəsində təhsil alan subbakalavr: | | | |
| **SGX-İTB01**<br>**/**<br>**B02 /**<br>**B03**<br>İstehsalat təcrübəsi<br>-1 / 2 / 3 | -qazanılmış nəzəri biliklərin təcrübələr keçirilən müəssisələrdə tətbiqinin mütərəqqi üsul və metodlarını.<br>-konkret ixtisas sahəsinin təşkili və idarə olunması metodlarını, qaydalarını, prinsiplərini və onların praktiki aprobasiyasını.<br>-nəzəri sahədə əldə etdikləri bilikləri praktikaya tətbiq etməyi, onların nəticələrini ümumiləşdirməyi və sistemləş-dirmək vərdişlərinə | | **35** | **PK – 1**<br>**PK – 2**<br>**PK – 3**<br>**PK – 4**<br>**PK – 5**<br>**PK – 6**<br>**PK – 7** |
| | | **Kreditlərin ümumi cəmi:** | **180** | |

3.2. **“Saç kəsimi və gözəllik xidmətlərinin təşkili”** ixtisasının təhsil proqramını mənimsəmək üçün ayrılan ümumi həftələr -143-dür,

*o cümlədən:*

- nəzəri təlim üçün 80;
- imtahan sessiyaları üçün 14;
- təcrübələr üçün 24;
- tətillər üçün 23;
- yekun dövlət attestasiyası üçün 2;

3.3. **“Saç kəsimi və gözəllik xidmətlərinin təşkili”** ixtisası üzrə təhsil proqramı aşağıdakı tədris-metodiki sənədlər əsasında həyata keçirilməlidir:

- nümunəvi tədris planı;
- işçi tədris planı;
- istehsalat təcrübələrinin keçirilməsinə, tələbələrin yekun dövlət attestasiyasına dair metodik göstərişlər;
- modul və fənn proqramları;
- modul və fənlər üzrə işçi-tədris proqramları;
- modul və fənlər üzrə tapşırıqların yerinə yetirilməsinin cədvəli;
- dərsliklər, əyani vasitələr, təklif olunan ədəbiyyatın siyahısı;
- nəzəri və praktiki məşğələlərin planı;
- modul və fənnin öyrənilməsi ilə bağlı tövsiyələr;
- laborator və qrafik işlərin yerinə yetirilməsinə, istehsalat təcrübələrinin yekunları barədə hesabatların hazırlanmasına dair metodiki tövsiyələr.

3.4. Subbakalavr dərəcəsi verən yüksək peşə təhsili pilləsi üzrə təhsil proqramını həyata keçirən peşə təhsili müəssisələri aşağıdakı hüquqlara malikdirlər:

- tələbə üçün proqramda nəzərdə tutulmuş illik orta dərs yükü həddini və təlimin, minimum məzmununu saxlamaqla təhsil materialının mənimsənilməsinə ayrılmış saatların həcmini modul bölümləri arasında 5%, modul bölümləri daxilində isə 20%-ə qədər dəyişmək;
- seçmə modulların siyahısını, onların tədris ardıcıllığını, dərs növləri üzrə saatların miqdarını müəyyən etmək;
- peşə təhsili müəssisələri seçmə modulları müxtəlif bloklar şəklində təklif edə bilər. Bu bloklara daxil olan modullar mümkün qədər müvafiq ixtisaslar üzrə subbakalavr proqramlarına istiqamətləndirilməlidir;
- hər semestrdə nəzəri təlim müddəti (sonuncu semestr istisna olmaqla) 15 həftədir;
- təhsil dövründə tələbənin məcburi auditoriya dərsləri bir qayda olaraq həftədə 35 saata qədər müəyyənləşdirilir.

## 4. 030210 – "Saç kəsimi və gözəllik xidmətlərinin təşkili" ixtisası üzrə təhsil prosesinin planı

| Sıra sayı | Modulların (fənlərin) şifri | Modulların (fənlərin) adı | Kreditin sayı | Ümumi saatlar | Auditoriyadan kənar saatlar | Auditoriya saatları | O cümlədən | | Prerekvizit fənlərin şifri | Tədrisi nəzərdə tutulan semestr | Həftəlik dərs yükü |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | Nəzəri dərslər | Praktiki məşğələ | | | |
| **I** | **BM-B00** | **Humanitar və baza modulları bölümü** | **43** | **1290** | **630** | **660** | **315** | **345** | | | **43** |
| 1 | HBM-B01 | Azərbaycan tarixi | 5 | 150 | 90 | 60 | 30 | 30 | | P1 | 4 |
| 2 | HBM-B02 | Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | 4 | 120 | 60 | 60 | 30 | 30 | | P1 | 4 |
| 3 | HBM-B03 | İnformasiya texnologiyaları I | 2 | 60 | 30 | 30 | 15 | 15 | | P1 | 2 |
| 4 | HBM-B04 | İnformasiya texnologiyaları II | 2 | 60 | 30 | 30 | 15 | 15 | HBM-B03 | Y1 | 2 |
| 5 | HBM-B05 | İnformasiya texnologiyaları III | 2 | 60 | 30 | 30 | 15 | 15 | HBM-B04 | P2 | 2 |
| 6 | HBM-B06 | Xarici dildə işgüzar və akademik kommunikasiya I | 3 | 90 | 45 | 45 | 15 | 30 | | P1 | 3 |
| 7 | HBM-B07 | Xarici dildə işgüzar və akademik kommunikasiya II | 3 | 90 | 45 | 45 | 15 | 30 | HBM-B06 | Y1 | 3 |
| 8 | HBM-B08 | Xarici dildə işgüzar və akademik kommunikasiya III | 3 | 90 | 45 | 45 | 15 | 30 | HBM-B07 | P2 | 3 |
| 9 | HBM-B09 | Xarici dildə işgüzar və akademik kommunikasiya IV | 3 | 90 | 45 | 45 | 15 | 30 | HBM-B08 | Y2 | 3 |
| 10 | HBM-B10 | Texniki hesab I | 2 | 60 | 30 | 30 | 15 | 15 | | P1 | 2 |
| 11 | HBM-B11 | Texniki Hesab II | 2 | 60 | 15 | 45 | 15 | 30 | HBM-B10 | Y1 | 3 |
| 12 | HBM-B12 | Şəxsi inkişaf və karyera planlaması | 3 | 90 | 30 | 60 | 45 | 15 | | Y2 | 3 |
| 13 | HBM-B13 | Layihə idarə edilməsi | 3 | 90 | 45 | 45 | 15 | 30 | | P3 | 3 |
| | *HBMS-B00* | *Humanitar və baza modulları bölümü üzrə seçmə modulları* | *6* | *180* | *90* | *90* | *60* | *30* | | | |
| 15 | HBMS-B01<br>HBMS-B02 | 1. Etika və estetika (İşgüzar Etika)<br>2. STEM | 3 | 90 | 45 | 45 | 30 | 15 | | P2 | 3 |
| 16 | HBMS-B03<br>HBMS-B04 | 1. Sahibkarlığın əsasları və biznesə giriş<br>2. İstehsalatın idarə edilməsi | 3 | 90 | 45 | 45 | 30 | 15 | | Y2 | 3 |
| **II** | **İM-B00** | **İxtisasın peşə hazırlığı modulları bölümü** | **102** | **3060** | **1110** | **1950** | **795** | **1185** | | | |
| 1 | SGX-İM-B01 | Anatomiya və fiziologiya | 3 | 90 | 15 | 75 | 60 | 15 | | P1 | 5 |
| 2 | SGX-İM-B02 | Gigiyena və sterilizasiya | 3 | 90 | 30 | 60 | 45 | 15 | | P1 | 4 |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 3 | SGX-İM-B03 | Əl-ayaq və dırnaqlara qulluq 1 | 4 | 120 | 45 | 75 | 45 | 30 | | P1 | 5 |
| 4 | SGX-İM-B04 | Kosmetik məhsullar | 4 | 120 | 45 | 75 | 45 | 30 | | P1 | 5 |
| 5 | SGX-İM-B05 | Saça forma vermə və qulluq | 4 | 120 | 30 | 90 | 15 | 75 | | Y1 | 6 |
| 6 | SGX-İM-B06 | Saç kəsimi 1 | 4 | 120 | 30 | 90 | 30 | 60 | | Y1 | 6 |
| 7 | SGX-İM-B07 | Makiyajın əsasları | 4 | 120 | 45 | 75 | 30 | 45 | | Y1 | 5 |
| 8 | SGX-İM-B08 | Dəriyə qulluq tədbirləri | 4 | 120 | 45 | 75 | 30 | 45 | | Y1 | 5 |
| 9 | SGX-İM-B09 | Saç kəsimi 2 | 4 | 120 | 30 | 90 | 15 | 75 | SGX-İM-B06 | P2 | 6 |
| 10 | SGX-İM-B10 | Əl-ayaq və dırnaqlara qulluq 2 | 4 | 120 | 45 | 75 | 15 | 60 | SGX-İM-B05 | P2 | 5 |
| 11 | SGX-İM-B11 | Saç rənglənməsi 1 | 4 | 120 | 45 | 75 | 30 | 45 | | P2 | 5 |
| 12 | SGX-İM-B12 | Kiprik və qaş forma vermə | 3 | 90 | 30 | 60 | 15 | 45 | | P2 | 4 |
| 13 | SGX-İM-B13 | Permanent (qalıcı) makyaj | 4 | 120 | 60 | 60 | 15 | 45 | | P2 | 4 |
| 14 | SGX-İM-B14 | Dırnaq bəzəmə və qaynağı | 4 | 120 | 45 | 75 | 15 | 60 | | Y2 | 5 |
| 15 | SGX-İM-B15 | Saç rənglənməsi 2 | 4 | 120 | 45 | 75 | 15 | 60 | SGX-İM-B11 | Y2 | 5 |
| 16 | SGX-İM-B16 | Masaj | 3 | 90 | 30 | 60 | 30 | 60 | | Y2 | 6 |
| 17 | SGX-İM-B17 | Müştəri ünsiyyəti və xidmət | 3 | 90 | 30 | 60 | 30 | 30 | | P3 | 4 |
| 18 | SGX-İM-B18 | Kompüterdə saç və makyaj dizaynı | 5 | 150 | 75 | 75 | 30 | 45 | | P3 | 5 |
| 19 | SGX-İM-B19 | Saç və dəri xəstəlikləri | 3 | 90 | 30 | 60 | 45 | 15 | | P3 | 4 |
| 20 | SGX-İM-B20 | Depilyasiya və Epilyasiya | 4 | 120 | 30 | 90 | 30 | 60 | | P3 | 6 |
| 21 | SGX-İM-B21 | Satış və marketinq fəaliyyəti | 4 | 120 | 60 | 60 | 30 | 30 | | P3 | 4 |
| 22 | SGX-İM-B22 | Bədənə qulluq tədbirləri | 4 | 120 | 30 | 90 | 45 | 45 | | P3 | 4 |
| 23 | SGX-İM-B23 | Gözəllik və estetik xidmətlərin təşkili və idarə edilməsi | 5 | 150 | 75 | 75 | 30 | 45 | | Y3 | 15 |
| 24 | SGX-İM-B24 | Fərdi imic və stilin yaradılması | 4 | 120 | 45 | 75 | 30 | 45 | | Y3 | 15 |
| **III** | ***SGX-İMS-B00*** | ***İxtisasın peşə hazırlığı üzrə seçmə modullar*** | ***10*** | ***300*** | ***120*** | ***180*** | ***75*** | ***105*** | | | |
| 1 | SGX-İMS-B01<br>SGX-İMS-B02 | Qidalanma və dəri sağlamlığı<br>Kosmetik məhsulların kimyası | 3 | 90 | 45 | 45 | 30 | 15 | | P2 | 3 |
| 2 | SGX-İMS-B03<br>SGX-İMS-B04 | Üz və saqqal qırxma<br>Səhnə makyajı | 3 | 90 | 30 | 60 | 15 | 45 | | Y2 | 4 |

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 3 | SGX-İMS-B05<br>SGX-İMS-B06 | İşıq sistemləri ilə gözəllik xidmətləri (Solarium)<br>Estetik xdimətlər üzrə aromaterapiya | 4 | 120 | 45 | 75 | 30 | 45 | | P3 | 5 |
| **IV** | **SGX-İT-BOO** | **İstehsalat təcrübə bölümü** | 35 | 1050 | 90 | 960 | | 600 | | | 120 |
| 1 | SGX-İT-B01 | İstehsalat təcrübəsi-1 | 7 | 210 | 10 | 200 | | 200 | | Y1 | 40 |
| 2 | SGX-İT-B02 | İstehsalat təcrübəsi-2 | 7 | 210 | 10 | 200 | | 200 | | Y2 | 40 |
| 3 | SGX-İT-B03 | İstehsalat təcrübəsi-3 | 21 | 630 | 70 | 560 | | 200 | | Y3 | 40 |

## Vaxt Bölgüsü

| Tədris ili | Nəzəri təlim | | İmtahan sessiyası | | Təcrübə | | Yekun dövlət attestasiyası | Tətil | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | payız semestri | yaz semestri | Qış | yay | tədris | istehsalat | | qış | Yay |
| I | 15.09-30.12<br>15 həftə | 31.01-20.05<br>15 həftə | 05.01-23.01<br>2.5 həftə | 25.06-12.07<br>2.5 həftə | - | 20.05-24.06<br>5 həftə | | 24.01-30.01<br>1 həftə | 12.07-14.09<br>10 həftə |
| II | 15.09-30.12<br>15 həftə | 31.01-20.05<br>15 həftə | 05.01-23.01<br>2.5 həftə | 25.06-12.07<br>2.5 həftə | - | 20.05-24.06<br>5 həftə | | 24.01-30.01<br>1 həftə | 12.07-14.09<br>10 həftə |
| III | 15.09-30.12<br>15 həftə | 31.01-05.03<br>5 həftə | 05.01-23.01<br>2.5 həftə | 06.03-15.03<br>1.5 həftə | | 18.03-24.06<br>14 həftə | 25.06 – 08.07 | 24.01-30.01<br>1 həftə | - |
| Cəmi | 80 həftə | | 14 həftə | | 24 həftə | | 2 həftə | 23 həftə | |

**5. 030210 – “Saç kəsimi və gözəllik xidmətlərinin təşkili” ixtisası üzrə subbakalavr hazırlığını həyata keçirən peşə təhsili müəssisəsinin maddi-texniki bazası və kadr potensialı**

5.1. Maddi-texniki baza:

- təhsil proqramını həyata keçirən peşə təhsili müəssisəsi subbakalavr hazırlığını təmin edən maddi-texniki bazaya (emalatxanalar, kabinetlər, laboratoriyalar, sinif otaqları, idman zalları, kitabxana və oxu zalları və s.) malik olmalıdır. Maddi-texniki baza qüvvədə olan inşaat normalarına, sanitar və gigiyenik qaydalarına uyğun olmalıdır.

Sinif otaqları və kabinetlər:
Laboratoriyalar:
Kitabxana, internet şəbəkəsinə çıxışı olan oxucu zalı
“Saç kəsimi və gözəllik xidmətlərinin təşkili” ixtisas kabineti
İdman kompleksi
Akt zalı

5.2. Kadr potensialı:

Peşə təhsili müəssisəsi müvafiq ixtisas üzrə ali və orta ixtisas təhsili olan kadrlarla və ya 5 ildən çox peşəkar əmək təcrübəsinə malik orta təhsilli kadrlarla təmin olunmalıdır.

Peşə təhsili müəssisələrində təhsilverənlərin keyfiyyət göstəricilərinə aşağıdakılar daxildir:

- öz fəaliyyətlərində innovativ təlim, informasiya-kommunikasiya, müasir texnika, yeni istehsal və pedaqoji texnologiyalardan istifadə etməli;
- təhsilverənlər ali və ya orta ixtisas təhsilli olmaqla yanaşı müəyyən istehsalat və pedaqoji təcrübəyə malik olmalı;
- mütəmadi olaraq öz bilik və bacarıqlarını artırmaq üçün müəyyən olunmuş müddətdə və qaydada ixtisasartırmadan keçməlidirlər.

## 6. Tədris prosesinin forma və metodları

6.1 Tədris formal təhsil formasında həyata keçirilir. Təhsilalma forması əyanidir.
030210 – “Saç kəsimi və gözəllik xidmətlərinin təşkili” ixtisas üzrə tələbələrin təhsili kredit sisteminə uyğunlaşdırılmış tədris plan və proqramları əsasında həyata keçirilir.

6.2. Tədris prosesində müxtəlif tədris-təlim metodlarından istifadə olunur (nəzəri, praktiki, laborator məşğələləri və s.). Bununla yanaşı təhsil alanların yaradıcı fəaliyyətinə imkan verən, tədqiqatçılıq bacarıqlarını stimullaşdıran yanaşmalara geniş yer ayrılmalıdır. Yeni pedaqoji texnologiyaları və müasir interaktiv təlim metodlarını əks etdirən dərs-ekskursiya, dərs-yarış, dərs-müzakirə, dərs-disput kimi qeyri-standart tədris yanaşmalarından istifadəyə üstünlük verilməli, təlim prosesinin çevikliyini təmin edən müxtəlif iş formalarından (kollektiv iş, qruplarla iş, cütlərlə iş, fərdi iş) istifadə olunmalıdır. Təlim prosesində dialoqa, məntiqi və tənqidi təfəkkürü inkişaf etdirən, yaradıcı fəaliyyətə əsaslanan fəal və interaktiv metodlardan istifadə edilməlidir. Tədris prosesində həmçinin SƏT (Səriştə Əsaslı Tədris) və layihə metodlarından da aktiv istifadə edilməlidir.

SƏT (Səriştə Əsaslı Tədris) Metodu:

(1) Müəllim təkcə təhsilverən olaraq deyil həm də fasilitator rolunu, tələbələr isə sərbəst şəkildə öyrənən təhsilalan rolunu yerinə yetirir. Nəzəri dərslər üçün optimal sinf ölçüsü 20 tələbə, təcrübə dərsi üçün 10 tələbə və kompetensiya təcrübəsi üçün kiçik qrup (2 ~ 5 tələbə) təşkil edir.

(2) Nəzəri dərslər üçün təhsilverən mühazirə, sual-cavab, proyektorundan istifadə etməklə təqdimat, müzakirə metodu və digər üsullardan istifadə edərək tələbələrə dərsi tədris edə bilər.

(3) Müəllimlər tələbələrə dərsi tədris etdikləri zaman, yarımil ərzində bir səriştəyə və ya alt-səriştəyə aid mövzuların tədrisində "blok sistemi"ni tətbiq edə bilərlər. Tələbələr səriştə üzrə mövzusuları bitirdikdən sonra npvbəti "blok" sisteminə keçə bilərlər. Bu sistem tələbələrə nisbətən böyük bir səriştələri səmərəli şəkildə və uğurla əldə etməsinə imkan verir.

Layihə Metodu

(1) Sinifdə tələbələr 2 ~ 5 tələbədən ibarət kiçik qruplara bölünür və yerinə yetirilməsi üçün tapşırıqlar müəyyən edilir. Proses, rol təyinatı və cədvəl də daxil olmaqla layihə planını hazırlanır. Lazımi materialları hazırlanır.

(2) Proses zamanı müəllimin nəzarəti altında peşə təhsili müəssisəsinin avadanlıqları, alətləri və vasitələrindən istifadə edilir. Tələbələr layihənin nəticəsinə dair təqdimatı digər tələbələrə təqdim edir. Qiymətləndirmə meyarlarına görə layihənin nəticəsini müəllim qiymətləndirir. Layihəyə aid müəyyən işləri və nəticələri təhsil müəssisəsinin məhsul sərgisində nümayiş etdirilir.

**7. Yekun dövlət attestasiyasına qoyulan tələblər və qiymətləndirmə**

7.1. Tələbələrin qiymətləndirilməsi Azərbaycan Respublikasının Təhsil Nazirliyinin KQ-06 nömrəli qərarı ilə təsdiq olunmuş "Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılması Qaydası" sənədində qeyd olunmuş formada həyata keçirilir. Subbakalavriat səviyyəsində ixtisaslar üzrə təhsil proqramları təhsilalanların dövlət attestasiyası ilə yekunlaşır.

7.2. Tədris planının bütün şərtlərini yerinə yetirmiş, o cümlədən nəzərdə tutulmuş attestasiyalardan müvəffəq qiymət almış tələbə üçün təhsil müddətində əldə etdiyi nəticələrə uyğun olaraq ümumi orta müvəffəqiyyət göstəricisi (ÜOMG) hesablanır. ÜOMG tələbənin təhsil proqramını mənimsəmə səviyyəsinin göstəricisidir və diploma əlavəyə daxil edilir. ÜOMG modul/fənlər üzrə toplanan balların həmin modul/fənnə görə qazanılan kreditlərə hasilləri cəmlərinin tədris planında nəzərdə tutulan müvafiq kreditlərin cəminə olan nisbəti kimi müəyyənləşdirilir:

$$ÜOMG \quad \frac{b1k1^{*}+b2k2^{*}+b3k3^{*}+...+bnkn^{*}}{k1+k2+k3+...+kn}$$

b1,b2,…,bn - tələbənin modullar (fənn) üzrə yığdığı ballar
k1,k2,…,kn - modullara tədris planında nəzərdə tutulan müvafiq kreditlər
k1*, k2*,..., k3* - modullar üzrə qazanılmış kreditlər (əgər tələbə imtahandan müvəffəq qiymət almazsa o, krediti qazanmamış hesab edilir və bu əmsal «0» sıfr olur)

7.3. Subbakalavriat səviyyəsində tələbələrin topladığı kreditlərin sayı 180 olmalıdır. İxtisaslar üzrə təhsil proqramlarında nəzərdə tutulmuş kreditləri toplayan tələbə həmin proqramı mənimsəmiş hesab edilir. Peşə təhsili müəssisələrində subbakalavriat səviyyəsinə uyğun yüksək peşə təhsili proqramı üzrə tədris planını tam yerinə yetirmiş şəxslərə yekun Dövlət Attestasiya Komissiyasının qərarı əsasında "subbakalavr" peşə-ixtisas dərəcəsi verilir.